**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BİRLƏŞMƏK HÜQUQUNUN İNSAN HÜQUQLARI SİSTEMİNDƏ YERİ: NƏZƏRİ VƏ TƏCRÜBİ PROBLEMLƏR

İxtisas: 5603.01 – Beynəlxalq hüquq; insan hüquqları

Elm sahəsi: Hüquq

İddiaçı: **Daşqın Məcid oğlu Qənbərov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: hüquq elmləri doktoru, professor
**Əmir İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Aytən İnqilab qızı Mustafazadə**

hüquq elmləri doktoru
**Vüqar Qurban oğlu Məmmədov**

hüquq elmləri doktoru, dosent
**Səidə Bəhram qızı Həsənzadə**

hüquq elmləri doktoru
**Ənvər Cümşüd oğlu Seyidov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 27 oktyabr 2023-cü il tarixli 3-50/3-1-1-235/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: _______________ hüquq elmləri doktoru, dosent
**Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: _______________ hüquq üzrə fəlsəfə doktoru, dosent
**Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: _______________ hüquq elmləri doktoru, professor
**Rüstəm Fəxrəddin oğlu Məmmədov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"26" 04 2024

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tədqiqat mövzusunun aktuallığını şərtləndirən əsas məqam ondan ibarətdir ki, hazırkı mərhələdə vətəndaş cəmiyyəti quruculuğu və ya vətəndaş cəmiyyəti ideyalarının inkişaf etdirilməsi istənilən demokratik inkişaf yolunu götürmüş dövlət üçün prioritet məqsədlərdəndir. Vətəndaş cəmiyyətinin formalaşması hər şeydən öncə, birləşmək hüququnun və ya birləşmək azadlığının reallaşdırılması ilə bağlıdır. Beynəlxalq hüquqi standartlara uyğun olaraq, həmçinin, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmiz üçün yeni olan bir sıra konstitusiya əsaslarını özündə ifadə etmişdir. Belə əsaslar içərisində siyasi müxtəliflik, çoxpartiyalılıq mərkəzi yerlərdən birini tutmuşdur. Eyni vəziyyətin bütün postsovet ölkələri, ümumiyyətlə, demokratik inkişaf yoluna nisbətən yeni qədəm qoymuş digər dünya dövlətləri üçün də səciyyəvi olduğunu soyləmək mümkündür. Bu baxımdan, əsasən birləşmək hüququnun reallaşdırılmasına söykənən vətəndaş cəmiyyəti ideyaları, bu ideyalarının reallaşdırılmasının normativ-hüquqi və praktiki əsasları problemi ətrafında elmi-tədqiqat işlərinin aparılması təkcə ayrı-ayrı ölkələr üçün deyil, qlobal müstəvidə böyük aktuallıq kəsb edir. Çünki belə tədqiqatlar vətəndaş cəmiyyətinin üstün tərəflər haqqında dolğun təsəvvürlər yaratmaqla, müvafiq olaraq birləşmək hüququnun insan hüquqları sistemində həlledici rolunu tam təsdiqləşmiş olur.

Məlumdur ki, dünya ictimaiyyəti birləşmək hüququnu əsas insan hüquqları kateqoriyasına aid olan hüquq kimi qəbul edir. Beynəlxalq sənədlərdə birləşmək hüququnun kifayət qədər rəngarəng aspektləri nəzərdə tutulmuşdur ki, bu da onun əsas insan hüquqları sistemində mərkəzi yerinə və roluna dəlalət edir. Bu zaman məsələyə fərqli birliklər çərçivəsində yanaşma müşahidə olunur.  Cəmiyyətdə ən müxtəlif ictimai birliklərin yaranması və fəaliyyəti müşahidə olunur. Bunların hər birinin xarakterinə uyğun olaraq, birləşmək hüququnun fərqli aspektlərinin müxtəlif beynəlxalq sənədlərdə və konvensiyalarda ifadəsini tapması problemə daha həssas və ciddi yanaşma tələb edir. Belə ki, birləşmək hüququnun ayrı-ayrı aspektlərinin ifadə olunduğu

çoxsaylı beynəlxalq sənədləri mövcudluğunu ancaq pozitiv əlamət kimi nəzərdən keçirmək doğru olmazdı. Təbii ki, birləşmək hüququnun ən müxtəlif beynəlxalq sənədlərdə təsbit olunması onun vacibliyi və ya əhəmiyyətliliyi dərəcəsinə dəlalət edir. Lakin nəzərə almaq lazımdır ki, belə müxtəliflik bir çox hallarda qeyri-müəyyənlik və ziddiyyətlər meydana gətirir. Bu baxımdan, seçilmiş tədqiqat mövzusu ətrafında elmi-tədqiqat işlərinin aparılması bir çox nəzəri suallarla yanaşı, praktiki suallara da cavab tapmağa imkan verir. Həm də müəyyən tövsiyələrin irəli sürülməsini şərtləndirir. Belə ki, birləşmək hüququnun həm milli qanunvericilik, həm də beynəlxalq qanunvericilik aktlarda çərçivəsində daha konkret və dəqiq ifadə olunması daha aydın və oturuşmuş təsəvvürlərin meydana gəlməsini təmin edər. Məsələn, diqqət yetirsək görərik ki, praktiki olaraq, dolayısı ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsində birləşmək hüququ öz ifadəsini tapmışdır. Belə ki, Bəyannamənin 18-ci maddəsində qeyd olunur: "*Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var; bu hüquqa öz dinini və əqidəsini dəyişmək, dininə və əqidəsinə həm təklikdə, həm də başqaları ilə birgə, açıq, yaxud xüsusi qaydada, təlimdə, ibadətdə, dini ayin və mərasimlərin icrasında etiqad bəsləmək azadlığı daxildir*".[1] Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 20-ci maddəsində isə, birləşmək hüququ daha dəqiq və aydın şəkildə təsbit olunmuşdur. Belə ki, Bəyannamənin 20-ci maddəsinin I və II bəndlərində ifadə olunmuşdur: "*Hər kəsin dinc toplaşmaq və birləşmək azadlığı hüququ vardır. Heç kəs hər hansı birliyə daxil olmağa məcbur edilə bilməz.*"[2] Dini etiqad azadlığı İnsan Hüquq və Əsas Azadlıqları haqqında Konvensiyada ifadə olunmuşdur. Bu məqam Konvensiyanın 10-cu maddəsində yer aldığı halda, 11-ci maddəsində hər bir kəsin digəriləri ilə birləşmək hüququnun olduğu əksini tapmışdır. Həmçinin, 1966-cı il dekabr ayının 16-da qəbul olunmuş Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktda da hər kəsin başqaları ilə birləşmək hüququ təsbit olunmuşdur.

---

[1] Universal Declaration of Human Rights // Adopted on December 10, 1948: [Electronic resource] / https://is.gd/SLjzg4.

[2] Yenə orada.

Ümumiyyətlə, tədqiqatlarımız üzə çıxarmışdır ki, müasir mərhələdə dünya dövlətlərinin əksəriyyətinin konstitusiyasında birləşmək hüququ ayrıca maddədə təsbit olunmuşdur. Belə bir vəziyyət Avropa ölkələrinin konstitusiyalarında aydın müşahidə olunur. Məsələn, bu baxımdan, Almaniya Federativ Respublikasının Konstitusiyasının 9-cu maddəsində bütün almanların öz ittifaqlarını və cəmiyyətlərini yaratmaq hüququna malik olduqları qeyd edilmişdir. Həmçinin, qeyd edək ki, elə həmin maddədə də birləşmək hüququnun məhdudlaşdırılması məsələsinin öz ifadəsini tapdığını müəyyənləşdirmək mümkündür. Belə ki, almanların birləşmək hüququ, bu birləşmənin qanunvericilik və konstitusion quruluşla ziddiyyət təşkil etmədiyi halda reallaşdırılır. Əks halda istənilən ittifaqın və ya birliyin yaradılması qadağan olunur.[3] Həmçinin, digər Avropa ölkələrinin konstitusiyalarında da oxşar müddəalara rast gəlmək mümkündür. Ümumiyyətlə, tədqiqatlarımıza əsasən müəyyənləşdirdik ki, birləşmək hüququnun əslində beynəlxalq sənədlərin bir deyil, bir neçə maddələrində əsasları ola bilər. Bunların hamısının ümumi əlamətlərinin mövcudluğu tədqiqatlar və təhlillər nəticəsində üzə çıxır. Bu baxımdan, bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılmasının əhəmiyyəti kifayət qədər böyükdür.

Müasir mərhələdə ictimai birliklərin fəaliyyətinin miqyası nəzərə çarpacaq dərəcədə genişlənməkdədir. Xarici ədəbiyyatlarda bir qayda olaraq qeyri-hökumət təşkilatları kimi səciyyələndirilən ictimai birliklər xüsusilə də insan hüquq və azadlıqlarının qorunması sahəsində ciddi fəallıq nümayiş etdirirlər. Belə hüquqlar sırasında birləşmək hüququ mərkəzi yerlərdən birini tutur. İctimai birliklərin hüquqi statusu, onların fəaliyyətinin tənzimlənməsi, vətəndaş cəmiyyətinin inkişafı və insan hüquq və azadlıqlarının qorunması həm dövlətdaxili, həm də beynəlxalq hüquqi ölçülərin dəqiqləşdirilməsini tələb edir. Bu baxımdan, birləşmək hüququnun müxtəlif aspektlərinin həm milli səviyyədə, həm də beynəlxalq miqyasda kompleks tədqiqi cəmiyyətin hüquqi və siyasi sisteminin

---

[3] Конституции зарубежных государств: Великобритания, Франция, Германия, Италия, Соединенные Штаты Америки, Япония, Бразилия: учебное пособие / Сост. сб., пер., авт. введ. и вступ. ст. В.В. Маклаков. – 6-е изд., перераб. и доп. – Москва: Волтерс Клувер, – 2009. – с. 116.

inkişaf tendensiyaları, dövlət orqanlarının fəaliyyəti, demokratik prinsiplərin oturuşması və s. haqqında dolğun təsəvvürləri formalaşdırması baxımından olduqca əhəmiyyətlidir.

Dünya təcrübəsinə nəzər salsaq, vətəndaş cəmiyyətinin institusional bazisi kimi ictimai birliklərinə aksiloji və struktur yanaşmalar arasında müəyyən ziddiyyətlərin olduğunu müşahidə etmiş olaraq. Vətəndaş cəmiyyətinin müxtəlif aspektləri ilə bağlı çoxsayl; suallara cavab tapılması istiqamətində genişmiqyaslı elmi-tədqiqat işləri həyata keçirilmişdir. Lakin buna baxmayaraq, dövlət və hüquq nəzəriyyəsində ona dair ciddi universal yanaşma formalaşmamışdır. Bu baxımdan, seçdiyimiz mövzu çərçivəsində vətəndaş cəmiyyətinin ayrı-ayrı aspektlərinin araşdırılması və bu kontekstdə ictiami birliklərin yeri və rolu haqqında əhatəli təhlillərin aparılması vətəndaş cəmiyyəti ideyasının nəzəri əsaslarının inkişafı baxımından ciddi əhəmiyyət kəsb edir. Elə bu məqam da həmçinin, Azərbaycan siyasi və hüquq elmi üçün ciddi aqktuallıq kəsb edir.

Həmçinin, qeyd etmək lazımdır ki, nə Azərbaycan elmində, nə də dünya elmində ictimai birliklərin hüquqi təbiətini izah tam izah edəcək, onların növləri və təşkilati-hüquqi formaları haqqında vahid yanaşma mövcud deyildir. Ümumiyyətlə, həyata keçirdiyimiz tədqiqat işlərinə istinad edərək, hesab edirik ki, cəmiyyətdə mövcud olan və fəaliyyət göstərən bütün ictimai, qeyri-kommersiya təşkilatlarını təsnifləndirəcək və onların yaranması və fəaliyyəti prinsiplərini özündə ifadə edəcək qanunvericilik bazası formalaşmamışdır. Deməli, belə nəticəyə gəlmək mümkündür ki, müvafiq olaraq, birləşmək hüququnun təbiətinin heç bütün aspekləti nəzəri müəyyənləşdirməyə məruz qalmamışdır. Bu da, bu istiqamətdə elmi-tədqiqat işlərinin daha geniş vasət almasının vacibliyinə dəlalət edən məqam kimi nəzərdən keçirilməlidir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, birləşmək hüququ problemi ətrafında elmi-tədqiqat işlərinin aparılması xüsusi aktuallıq kəsb edir. Müstəqilliyinə qədəm qoyduğu ilk vaxtlardan demokratik inkişaf yolunu seçmiş Azərbaycan Respublikası üçün müvafiq olaraq vətəndaş cəmiyyəti quruculuğu məsələsi ciddi diqqət mərkəzində olmuşdur və olmaqda davam edir. Vətəndaş cəmiyyəti quruculuğu birləşmək hüququnun reallaşdırılması ilə üzvü bağlılıq

təşkil edir. Bu baxımdan, biz hazırkı mərhələdə birləşmək hüququ haqqında konstitusiya müddəaları dövlət quruculuğunun ən təsirli elementlərindən biri rolunda çıxış edir. Təbii ki, Azərbqaycan Respublikasında vətəndaş cəmiyyətinin əsas elementini təşkil etməklə, ictimai birliklərin sayının çoxluğuna deyil, onların keyfiyyət göstəricilərinə nail olmaq məsələsi aktuallıq kəsb edir. İctimai birliklərin mümkün formaları vətəndaş cəmiyyətinin digər elementlərinin də özünü təşkilini şərtləndirir. Məhz ictimai birliklər dövlət, cəmiyyət və əhali arasında qarşılıqlı münasibətlərin tələb səviyyəsini təmin edir. Təbii ki, bütün bunların ilkin başlanğıcını birləşmək hüququnun təminatı və onlarının reallaşdırılması səviyyəsi təşkil edir. Bu baxımdan, vətəndaş cəmiyyəti ideyasının uğurla reallaşdırıldığı Azərbaycan Respublikasında birləşmək hüququnun normativ-hüquqi əsaslarının və təminatının praktiki problemləri ətrafında elmi-tədqiqat işlərinin aparılması olduqca böyük aktuallıq kəsb edir.

Birləşmək hüququ əsas insan hüquqları və azadlıqları sistemində mərkəzi yeri tutmaqla, dünya tədqiqatçılarının xüsusi diqqətləri mərkəzində olmuşdur. Azərbaycan, Rusiya və Qərb tədqiqatçıları tərəfindən birləşmək hüququnun ayrı-ayrı aspektlərinin tədqiqi istiqamətində müxtəlif elmi-tədqiqat işləri həyata keçirilmişdir. Azərbaycan Respublikasında birləşmək hüququ ümumi insan hüquqları kontekstində, vətəndaş cəmiyyəti, ictimai birliklərin yaranması və fəaliyyəti ilə bağlı problemlərə həsr olunmuş elmi işlərdə tədqiq edilmişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan elmində birləşmək hüququ tam əhatəli tədqiq edilməmişdir. Təqdim olunan dissertasiyada Azərbaycanda ilk dəfə olaraq birləşmək hüququ ayrıca nəzəri və praktiki problem kimi tədqiq olunmuşdur. Lakin bir sıra Azərbaycan tədqiqatçılarının əsərlərində birləşmək hüququ, vətəndaş cəmiyyəti, ictimai birliklərin formalaşması və fəaliyyəti problemləri ilə bağlı məqamlara rast gəlmək mümkündür. Belə tədqiqatçılardan Belə tədqiqatçılardan Ə.Əliyev[4], R.Məmmədov[5], Z.Əliyev[6], Ə.Sadıqov[7], E.Əliyev[8],

---

[4] Əliyev, Ə.İ. İnsan hüquqları. Dərslik. – Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, – 2019. – 380 s.

T.Hüseynov[9], S.Əliyev[10], Ş.Əliyev[11], F.Mehdiyev,[12] Z.Əsgərov,[13] L.Hüseynovu,[14]P.Bayramova,[15] M.Məmmədov,[16] R.Məmmədov,[17] A.Qasımov[18], Z.Cəfərov[19] və digərlərinin adlarını qeyd etmək mümkündür.

Azərbaycan Respublikasında insan hüququ istiqamətində ən geniş miqyaslı tədqiqat aparmış şəxs kimi professor Əmir Əliyevi qeyd etmək olar. Bu sahədə fundamental əsərləri olan Ə.Əliyev insan hüquqlarının bir sıra aktual problemlərini tədqiq etmiş və mühüm nəticələrə gələrək müvafiq sahə qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermişdir. Onun müəllifi

---

[5] Məmmədov, R.F. Azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində. – Bakı: Səda nəşriyyatı, – 2016. – 231 s.

[6] Əliyev, Z. Avropa İnsan hüquqları məhkəməsi.Dərs vəsaiti. Bakı: hüquq ədəbiyyatı, – 2010. – 275 s.

[7] Sadıqov, Ə. Bələdiyyə hüququ. Dərs vəsaiti. – Bakı: Elm və təhsil, – 2011. – 144 s.

[8] Əliyev, E.Ə., Hüseynova, F.E. Beynəlxalq hüququn prinsipləri:anlayışı və sistemi. Bakı: "Günəş-B" nəşriyyat poliqrafiya müəsisəsi, – 2017, – 164 s.

[9] Hüseynov, T.İ. Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyi: beynəlxalq hüquqi və dövlətdaxili aspektlər: / hüquq üzrə elmlər dkotoru dis-nın avtoreferatı. / – Bakı, 2018. – 41 s.

[10] Əliyev, S.F. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin dövlətdaxili təminat mexanizmləri: / hüquq üzrə elmlər dkotoru dis-nın avtoreferatı. / – Bakı, 2018. – 39 s.

[11] Əliyev, Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar: nəzəri və praktiki məsələlər. Dərs vəsaiti. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2008, – 368 s.

[12] Mehdiyev, F. Nəzəriyyə və təcrübədə insan hüquqları. Azərbaycan Hüquqçular Assosiasiyası / F.Mehdiyev. – Bakı: Adventa MMC, – 2013. – 405 s.

[13] Əsgərov, Z.A. Konstitusiya hüququ / Z.A.Əsgərov. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2002. – 632 s.

[14] Hüseynov, L. Beynəlxalq hüquq / L.Hüseynov. – Bakı: Qanun, – 2012. – 368 s.

[15] Bayramova, P. Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi: monoqrafiya / P.Bayramova. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 2004. – 184 s.

[16] Məmmədov, M. Heydər Əliyev və insan hüquqları // Azərbaycan. – 2009, 10 iyun, № 124. – s.3.

[17] Məmmədov, R. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri: məlumat kitabı / R.Məmmədov. – Bakı: Azərnəşr, – 2009. – 416 s.

[18] Qasımov, A.M. Əmək hüququ. Dərslik / A.M.Qasımov. – Bakı: Letterpress, – 2016. – 840 s.

[19] Cəfərov, Z. Əmək hüquqlarının müdafiəsi üsulları kontekstində əmək mübahisələrinin hüquqi tənzimlənməsi: monoqrafiya/ Z.Cəfərov. – Bakı: Qanun nəşriyyatı, – 2010. – 471 s.

olduğu “İnsan hüquqları”, “Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri”, “İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi” dərslikləri, “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq – hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika” və s. əsərləri Azərbaycan huquq elminin insan hüquqları bölümünün ən zəngin mənbələrindəndir.

Tədqiqatçı alim Zaur Əliyev insan hüquqlarının müdafiə mexanizmləri, təminat üsulları ilə bağlı geniş tədqiqatlar aparıb. Onun 2010-cu ildə işıq üzü görmüş “Avropa İnsan hüquqları məhkəməsi” adlı əsəri bu sahədə xüsusi əhəmiyyətə malikdir. Alim sözügedən əsərdə insan hüquqlarının anlayışı, mahiyyəti ilə bağlı geniş təhlillər apararaq bu hüquqlarının təminatında dövlətdaxili və beynəlxalq mexanizmləri sadalayır, mövcud müdafiə mexanizmlərinin effektivliyini şərh edir. Z.Əliyev əsərində Avropa İnsan Hüquqları Məhkəməsinin insan hüquqlarının təminatındakı rolunu xüsusi qeyd edərək məhkəməyə müraciətin üsul və vasitələrini aydınlaşdırır.

Tədqiqatçı alimlərdən hüquq elmləri doktoru Əfsər Sadıqovun elmi tədqiqatlarını qeyd etmək olar. Alimin çoxşaxəli tədqiqatları əsasən enerji təhlükəsizliyi, enerji hüququ, beynəlxalq iqtisadi hüquq və s. bu kimi oxşar sahələri əhatə etsə də, alimimiz 2011-ci ildə çapdan çıxmış “Bələdiyyə hüququ” adlı əsərində yerli özünüidarəetmədə icmaların rolunu milli və beynəlxalq hüquqi əsaslarla təhlil edib. Bu da insanların birləşərək özlərinin idarəetmə quruluşlarını təşkil etmə kontekstində tədqiqatlarımız üçün əhəmiyyətli oldu.

Tədqiqatçı alimlərdən hüquq elmləri doktoru Sübhan Əliyevin də əsərləri tədqiqat mövzumuz üçün diqqətəlayiq hesab edildi. Belə ki, Sübhan Əliyevin çoxsaylı araşdırmaları içərisində onun hüquq elmlər doktoru dissertasiyası bizim üçün çox əhəmiyyət kəsb edirdi. S.Əliyev daha çox inzibati hüquq istiqamətində araşdırmalara aparsa da, onun “İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin dövlətdaxili təminat mexanizmləri” adlanan dissertasiya işi bəzi məqamlarda bizim apardığımız tədqiqat üçün istinad nöqtəsi ola bilirdi. Çünki insan hüquqlarının dövlətdaxili təminat

mexanizmlərindən söhbət gedərkən insan hüquqlarından biri olan birləşmək hüququnun da təminatında əsərdə qeyd olunan dövlətdaxili təminat mexanizlərinin mahiyyət etibarı ilə eynilik təşkil edir.

Tədqiqatlarımızda istifadə etdiyimiz mənbələr sırasında yerli alimlərdən hüquq elmləri doktoru Zahid Cəfərovu da qeyd etmək istərdim. Z.Cəfərovun əsas tədqiqaq sahəsi insanların əmək hüquqları olsa da, tədqiqatçının əsərlərinə nəzər saldıqda onun məsələlərə kompleks yanaşaraq da əhatəli təhlillər apardığının şahidi oluruq. Məsələn, Z.Cəfərovun "Əmək hüquqlarının müdafiəsi üsulları kontekstində əmək mübahisələrinin həll edilməsinin qüvvədə olan qaydası" adlı əsərində o, əmək hüquqlarının müdafiəsinin müdafiə üsullarından biri kimi əmək kollektivlərinin, həmkarlar təşkilatlarının rolunu geniş izah edir ki, bu da başqa bucaq altında baxılanda birləşmək hüququnun reallaşma formalarıdır.

Tədqiqatçı F.Mehdiyev "Nəzəriyyə və təcrübədə insan hüquqları" əsərində ümumilikdə insan hüquqları problemini ətraflı araşdırmışdır. Əsərdə hər şeydən öncə insan hüquqlarının mənbəyi haqqında məlumat verilir. Həmçinin, insan hüquqlarının təsnifatı aparılır. Bu zaman üç nəsil insan hüquqları nəzərdən keçirilir. Diqqəti cəlb edən məqam ondan ibarətdir ki, insan hüquqları qeyri-hökumət təşkilatları kontekstində nəzərdən keçirilir. Bütün hüquqlarla yanaşı, ayrıca olaraq sərbəst toplaşma və birləşmə azadlığı problemi də nəzərdən keçirilmişdir.

Tədqiqatçı alim Z.Əsgərov Konstitusiya hüququ adlı əsərində konstitusiya hüququ ilə tənzimlənən məsələlərə toxunulur. Bundan başqa, Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasının ayrı-ayrı məqamlarından, həmçinin, Konstitusiyaya olunmuş əlavə və dəyişikliklərdən bəhs olunur. Əsas diqqətin yetirildiyi məsələlərdən biri də insan hüquq və azadlıqları ilə bağldır. Onları tənzimləyən konstitusiya qanunları haqqında da ətraflı məlumatlar verilmişdir. Həmçinin, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş əsas hüquq və azadlıqlar haqqında məlumatlar verilir.

Digər tanınmış tədqiqatçı L.Hüseynov Beynəlxalq hüquq adlı əsərində müasir beynəlxalq hüququn mahiyyətini izah edir, onun

əsas istiqamətləri və institutları haqqında məlumat verir. Bundan başqa, beynəlxalq normativ sənədlər və Azərbaycanın beynəlxalq hüquq müstəvisində yeri haqqında fikirlər səsləndirilir. Nəzərdən keçirilən məsələlər çərçivəsində həmçinin, insan hüquq və azadlıqları probleminə də toxunulur.

Milli hüquq ədəbiyyatında tanınmış alimlərindən biri olan professor Alış Qasımov da birləşmək hüququnun reallaşma mexanizmləri, əmək hüququnun qorunmasında rolu, yeri və digər aspektlərini tədqiq edibdir.

Tanınmış Azərbaycan alimlərindən Rüstəm Məmmədov birləşmək hüququnun ümumi beynəlxalq hüquqi əsaslarını, Etibar Əliyev birləşmək hüququna beynəlxalq hüququn prinsipləri və mənbələri kontekstində yanaşmalarını ifadə edib. Tanınmış azərbaycan alimlərindən Turqay Hüseynov məsələyə ekoloji kontekstdə, Şəhriyar Əliyev sosial hüquqlar kontekstində baxışlar edib, təhlillər aparmışlar.

Qeyd etmək lazımdır ki, digər Azərbaycan tədqiqatçıları da insan hüquq və azadlıqları problemi kontekstində həm də birləşmək hüquq və ictimai birliklər probleminə toxunulur. Ümumiyyətlə, müasir mərhələdə Azərbaycan elmində vətəndaş cəmiyyəti ideyasının inkişaf etdirilməsi həm də müvafiq olaraq birləşmək hüququ problemi ətrafında daha geniş diskurslara yol açır. Ümumiyyətlə, Azərbaycan elmində ictimai birliklərin fəaliyyətinə, onların yaradılmasının təşkilatı-hüquqi əsaslarına dair müəyyən elmi işlər olsa da, hüquq elmində konstitusiya birləşmək hüququnun hüquqi təbiətinin kompleks tədqiqi aparılmamışdır. Həmçinin, birləşmək hüququnun məhdudlaşdırılmasının normativ-hüquqi əsaslarının və universal prinsiplərinin tədqiq edlməsinə ehtiyac vardır.

Rusiya elmində birləşmək hüququ probleminin kifayət qədər geniş araşdırıldığını söyləmək üçün ciddi əsaslar mövcuddur. Belə ki, Rusiya elmində birləşmək hüququ demək olar ki, həmişə tədqiqatçıların ciddi diqqətləri mərkəzində olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Rusiya elmində birləşmək hüququ əsasən ictimai birliklərin yaradılmasının və fəaliyyətinin qiymətləndirilməsi kontekstində nəzərdən keçirilmişdir. Rusiyalı tədqiqatçılardan A.Aza-

rov,[20] D.Malıy,[21] V.Mixeyev,[22] S.Afanasyev,[23] N.Belyakoviç,[24] İ.Gerasimov,[25] S.Dorofeyev,[26] A.Kurakin,[27] Y.Lebedeva,[28] K.Tokmakov[29] və digərlərini xüsusi qeyd etmək mümkündür. Adlarını sadaladığımız rusiyalı tədqiqatçılar əsərlərində birləşmək hüququnun mahiyyətini, onların normativ hüquqi əsaslarını və reallaşdırılması mexanizmlərini nəzərdən keçirirlər. Tədqiqatçılar həmçinin, birləşmək hüququnun məhdudlaşdırılması problemi ətrafında da geniş təhlillər aparmışlar. Bundan başqa, ictimai

---

[20] Азаров, А.Я. Система защиты прав и свобод человека / А.Я.Азаров. – Москва: Московская школа прав человека, – 2007, – 341 с.

[21]Малый, Д. Право на объединение: институционализация понятия // XII Ломоносовские чтения: Сб. науч. тр. – Архангельск, 2000, – с.153-154; Малый, Д. Содержание права граждан на объединение в Российской Федерации // Право. Свобода. Личность: Сб. ст. / Отв. ред. Г.Б. Романовский - Архангельск, 2001, с. 64-74; Малый, Д. Нормативное закрепление права на объединение // Проблемы формирования регионального законодательства: Сб. науч. ст. – Архангельск, 2001, – с.72-77.

[22] Михеев, В.А. Институты гражданского общества в политике и государственном управлении//Власть, № 4, – 2015, – с.53-57.

[23] Афанасьева, С.А. Классификация политических прав и свобод человека и гражданина // – Москва: Вестник Московского городского педагогического университета. Серия: Юридические науки, – 2008, №2 (28), – с.110 -112.

[24] Белякович, Н.Н. Права человека и политика: философско-правовые основы / Н.Н.Белякович. – Минск: Амалфея, – 2009, – 411с.

[25] Герасимова, И. Свобода объединения в профсоюзы. Практика Европейско-го суда по правам человека / И.Герасимова. – Москва: ЦСТП, – 2010, – 112 с.

[26] Дорофеев, С.Н. Право граждан на объединение как правовой фундамент создания политических партий: российский и мировой опыт // Трибуна молодого ученого, – 2007, № 2 (5), – с.115-119.

[27] Куракин, А.В., Калинина, Н.С. Административная ответственность и ее реализация в сфере обеспечения правопорядка при проведении собраний, митингов, демонстраций, шествий и пикетирования // Административное и муниципальное право, – 2013. № 3, – с. 270-279.

[28] Лебедева, Е.В. Институты гражданского общества в реализации правоох-ранительной функции государства: / дис. кандидата юридических наук. / – Челябинск, 2007. – 176 с.

[29] Токмаков, К.К. Право граждан на объединениев политические партии в условиях правового государства: / автореферат дис. кандидата юридических наук. / – Москва, 1992. – 22 с.

təşkilatların təbiəti, onların vətəndaş cəmiyyətinin inkişafında yeri və rolu problemləri ətrafında təhlillər aparan zaman da birləşmək hüququ diqqət mərkəzində olmuşdur. Rusiya hüquq elmində konkret olaraq birləşmək hüququ A.Aliyev,[30] V.Lısenko,[31] D.Alimov,[32] A.Markitantov,[33] V.Soldatov,[34] V.Pronkin[35] və başqaları tərəfindən ətraflı araşdırılmışdır. Buna baxmayaraq, Rusiya hüquq elmində də birləşmək hüququ kifayət qədər zəif araşdırılmışdır. Birləşmək hüququnun məhdudlaşdırılması isə ümumi şəkildə siyasi və vətəndaş hüquqlarının tədqiqi çərçivəsində həyata keçirilmişdir. Bu istiqamətdə tədqiqat aparan alimlərdən D.Malıy və V.Konnov fərqlənirlər.

Birləşmək hüququ Qərb tədqiqatçıları tərəfindən daha ətraflı tədqiq olunmuşdur. Belə ki, məhz Qərbdə qəbul olunmuş Konvensiyalarda və çoxsaylı qanunvericilik aktlarında birləşmək hüququnun normativ-hüquqi əsasları ifadə olunmuşdur. Qərbdə birləşmək hüququ problemi ətrafında əsasən A.Kassye,[36] P. Devid,[37] V.Fikençer,[38] D.Hubert,[39] K.Kauş,[40] H.Kol,[41] L.Levin,[42]

---

[30] Алиев, А. А. Конституционное право граждан на объединение в системе прав и свобод человека и гражданина / А.А.Алиев. – Москва: ЮНИТИ-ДАНА, – 2014. – 168 с.

[31] Лысенко, В.В. Общественные объединения как форма реализации конституционного права на объединение в Российской Федерации: / дис. кандидата юридических наук. / – Москва, 2001. – 150 с.

[32] Алимов, Д. А. Конституционное право на объединение: механизм обеспечения и пределы ограничения: / дис. кандидата юридических наук. / – Ростов-на-Дону, – 2001. – 194 с.

[33] Маркитантов, А. В. Негосударственные объединения в Российской Федерации: теория и практика конституционно-правового регулирования: / дис. кандидата юридических наук. / – Екатеринбург, 2002. – 195 с.

[34] Солдатов, В. В. Защита конституционных прав юридических лиц в Конституционном Суде Российской Федерации: / дис. кандидата юридических наук. / – Челябинск, 2007. – 240 с.

[35] Пронькин, В. Н. О свободе ассоциаций // Известия высших учебных заведений: Правоведение. – 1993. – № 5, – с. 38-45.

[36] Adem, Kassie Abebe. Human rights in the Ethiopian Constitution: a descriptive overview // Mizan Law review, – 2011. Vol. 5. No.1, – p. 41-71.

[37] David, P. Forsythe. Human Rights in International Relations / David, P. Forsythe. – Cambridge University Press, –2013. – 29 p.

[38] Fikentscher, W. Freiheit als Aufgabe / W.Fikentscher. – Tubingen, – 1997. – 212 s.

E.Petersman[43] kimi tədqiqatçılar araşdırmalar aparmışlar. Qeyd etdiyimiz tədqiqatçılar ümumi şəkildə insan hüquq və azadlıqlarının qorunması problemləri ətrafında elmi-tədqiqat işləri həyata keçirmişlər. Həmçinin, bu kontekstdə birləşmək hüququnun təmin olunması problemi diqqət mərkəzində olmuşdur. Ümumiyyətlə, Avropada da birləşmək hüququnun əsas insan hüquqları sistemində tam yerinin müəyyənləşdirilməsi məsələsinin hələ açıq qaldığı əksəriyyət tərəfindən qəbul olunmuşdur. Bundan başqa, birləşmək hüququnun məhdudlaşdırılmasının dəqiq və universal normativ-hüquqi əsaslarının yaradılması istiqamətində elmi səylərin artırılmasına hələ ciddi ehtiyac duyulmaqdadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ümumi şəkildə birləşmək hüququ təşkil edir. Tədqiqatın predmetini birləşmək hüququnun müəyyən edilməsi və təminatları ilə bağlı məsələlər  və bu hüququn tədqiq olunmasında istifadə olunan beynəlxalq sənədlər, milli qanuvericilik aktları, qəbul edilən dövlət proqramları, yerli və beynəlxaql məhkəmə təcrübələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi birləşmək hüququnun insan hüquqları sistemində yerini müəyyənləşdirmək üçün kompleks tədqiqatlar aparmaq, bu sahədə mövcud praktiki problemləri müəyyən etmək, nəzəriyyə ilə təcrübənin vəhdətinə əsaslanaraq çıxış yolları ilə bağlı təkliflər irəli surməkdən ibarət olmuşdur. Qeyd edilən məqsədə nail olmaq üçün tədqiqatda

---

[39] Hubert, D. The Responsibility to Protect - Research, Bibliography, Background: Supplementary Volume to the Report of the International Commission on Intervention and State Sovereignty / D. Hubert, G. Thomas. – Canada: International Development Research Centre, – 2001. – 427 p.

[40]Kausch, K. Defenders in Retreat Freedom of Association and Civil Society in Egyp//Working Paper / Documento de trabajo, – Madrid, – 2009. – 81 p.

[41] Kohl, H. Freedom of Association, Employees' Rights and Social Dialogue in Central and Eastern Europe and the Western Balkans: [Electronic resource] / H. Kohl. – Berlin: Friedrich-Ebert-Stiftung, – 2009. – 112 p.

[42]Levin, L. Human rights Questions and Answers: [Electronic resource] // L. Levin. – UNESCO publishing, – 2009. – 232 p.

[43] Petersmann, E.U. How to Constitutionalize International Law and Foreign Policy for the Benefit of Civil Society? // Michigan Journal of International Law, – 1999. no. 20, – p. 1-30.

aşağıdakı vəzifələr müəyyən edilmişdir:

-insan hüquqları anlayışının mahiyyətini və məzmunu ətraflı təhlil etmək;

-insan hüquqları sisteminin tarixi formalaşması prosesini və mərhələlərini nəzərdən keçirmək;

-əsas insan hüquqlarının səciyyəvi cəhətlərini tədqiq etmək;

-insan hüquqlarının qorunmasının normativ-hüquqi əsaslarının təhlil edilməsi;

- birləşmək hüququnun mahiyyətini müəyyənləşdirmək, onun məzmunu anlayışlar aparatının köməyi ilə açmaq;

-insan hüquqları sistemində birləşmək hüququnun müəyyənləşdirilməsi;

-birləşmək hüququnun normativ-hüquqi tənzimlənməsi problemini nəzərdən keçirmək;

-vətəndaş cəmiyyətinin formalaşmasının birləşmək hüququnun rolunu müəyyənləşdirmək;

-birləşmək hüququnun təmin olunması prinsiplərini və mexanizmlərini tədqiq etmək;

-birləşmək hüququnun məhdudlaşdırılmasının normativ-hüquqi əsaslarının nəzərdən keçirilməsi;

-Azərbaycan Respublikasında birləşmək hüququnun konstitusiya-hüquqi əsaslarının və təminatı problemləri ətrafında müzakirələr aparmaq.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsası tədqiqat çərçivəsində qarşıya qoyulmuş məqsədlərdən irəli gələn vəzifələri həll etməyə imkan verən metodların məcmusundan formalaşmışdır. Dissertasiyanın yazılması prosesində həm ümumelmi (formal məntiqi, sistemli-struktur təhlil, tarixi yanaşma, elmi və praktik materialların ümumiləşdirilməsi), həm də xüsusi elmi metodlardan (müqayisəli hüquqşünaslıq, məntiqilik, statistik təhlil, monitorinq və s.) istifadə edilmişdir. Bu zaman birləşmək hüququnu özündə ehtiva edən bır sıra dövlətlərin qanunvericiliyinin müqayisəli təhlili aparılmış, inkişaf etmiş dövlətlərin qanunvericiliyində əks olunan nümunəvi normaların milli qanunvericiliyə və praktikaya tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür. Tədqiqatın nəzəri əsasını Azərbaycan, Rusiya və Avropa tədqiqatçılarının bu sahədəki əsərləri təşkil etmişdir. Bundan

başqa, tədqiqatlar zaman Azərbaycan Respublikasının Konstitusiyasına, müvafiq istiqamətdə qanunvericilik aktlarına, həmçinin, beynəlxalq normativ – hüquqi mənbələrə istinad edilmişdir, Avropa İnsan Hüquqları Məhkəməsinin aidiyyatı işləri tədqiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliyini özündə ifadə edən aşağıdakı yeni **elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində Ümummilli lider Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqlarının qorunması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi, zəngin normativ bazanın yaradılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə qayıdışından sonra hüquqi və demokratik cəmiyyət quruculuğu, insan hüquqları sahəsi ciddi diqqət mərkəzinə keçdi. Ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış konstitusiya layihəsi insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi üçün yeni bir səhifənin açılmasını şərtləndirdi. İnsan hüquq və azadlıqlarının səmərəli təmin olunmasına imkan verəcək normativ-hüquqi bazanın yaradılması istiqamətdə kompleks addımlar atılmağa başlanıldı. Bu məqam Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarına nə dərəcədə böyük həssaslıqla yanaşıldığını aydın ifadə edirdi. Ümumiyyətlə, Ulu Öndər fəaliyyətinin elə ilk günlərindən insan hüquqlarının qorunması, demokratik cəmiyyət quruculuğu məsələlərinin onun üçün prioritet təşkil etdiyini nümayiş etdirmişdir. İnsan hüquqlarından biri olan birləşmək hüququnun reallaşdırlması istiqamətində Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri qeyd edilməlidir.

2. 2003-cü ildə cənab Prezident İlham Əliyevin Azərbaycan Respublikasında siyasi hakimiyyətə gəlməsi ilə respublikada bütün sahələrdə olduğu kimi insan hüquqlarının təminatı və səmərəli müdafi mexanizmlərinin inkişafı istiqamətində genişmiqyaslı işlər həyata keçirilməyə başlanıldı. Xüsusilə, qeyri hökümət təşkilatlarına (QHT) dövlətin maliyyə dəstəsyinin verilməsi QHT-ləri kənar qüvvələrin asılılığından xilas etdi və onların həqiqi vətəndaş cəmiyyəti təsisatları

olmasına istiqamətləndirdi. 2022-ci ildə siyasi partiyalar haqqında yeni qanunun qəbul edilməsi ilə isə vətəndaşların zamanın çağırışlarına cavab verən daha mütərəqqi qanundan bəhrələnməsinə şərait yaratdı.

3. İnsan hüquqları haqlı olaraq konstitusionalizmin mərkəzi dayağını təşkil edən kateqoriya kimi qiymətləndirilir. Bu fikri dəstəkləyərək əsaslandırmaq olar ki, insan hüquqları hüquqi fenomen kimi ictimai münasibətlərin konstitusiya-hüquqi tənzimləməsinin məzmununu ifadə edir. Demokratik hüquqi dövlətlər üçün vətəndaşlara dövlətin ictimai-siyasi həyatında sərbəst iştirak etməyə imkan verən konstitusion hüquqlar daha əhəmiyyətli kateqoriya kimi qiymətləndirilməlidir.

4. Birləşmək hüququ vətəndaşlara öz maraqlarının birgə qorunması üçün təminat verir, digər konstitusiya hüquqlarının mövcudluğu üçün yaxşı zəmin yaradır. Məsələn, toplaşmaq azadlığı, söz azadlığı kimi hüquqların təmin olunmasında birləşmək hüququ əsas rolunda çıxış edir. Həqiqətən də, apardığımız təhlillər nəticəsində dir daha qətiləşdirdik ki, birləşmək hüququ təmin olunmadan bu hüquqlar deklarativ xarakter daşıyar.

5. Xüsusi hüquqi rejimlər çərçivəsində birləşmək hüququnun məhdudlaşdırılması və ya onun reallaşdırılmasının tamam qarşısının alınması imkanları beynəlxalq normativ-hüquqi aktlarda ifadə olunmuşdur və bu, birləşmək hüququnun reallaşdırılması sahəsində hüquqi tənzimləmə kimi nəzərdən keçirilə bilər. Burada xüsusi hüquqi rejimlər dedikdə, fövqəladə hallar, müharibə və s. başa düşülə bilər. Yəni, birləşmək hüququnun reallaşdırılması cəmiyyətdə neqativ nəticələrə səbəb olmamalıdır, ən əsası isə, başqalarının hüquqlarının pozulmasını şərtləndirməməlidir.

6. İnsan hüquqları beynəlxalq hüquqi tənzimlənmənin obyekti rolunda çıxış edir. Təbii ki, vətəndaş hüquqlarının bazasında da məhz elə insan hüquqları dayanır. Belə ki, dövlət qanunvericilik aktlarında təsbit olunduğu andan insan hüquqları vətəndaş hüquqları kimi səciyyələndirilir. Çünki burada artıq dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsi məsələsi ortaya çıxır. İnsan hüquqları ilə vətəndaş hüquqlarının sərhədlərini müəyyən edən məqam məhz bundan ibarətdir. Lakin onu da qeyd etmək lazımdır ki, əksər hallarda “insan

hüquqları", "vətəndaş hüquqları" və "şəxsiyyətin hüquqları" sinonim kimi təqdim olunurlar. Bu anlayışlar arasında sərhədlərin müəyyənləşdirilməsi konkret məqamlara xidmət edir. Məsələn, insan hüquqlarının təbiətini daha dəqiq izah etmək üçün bəzən sərhədlənmənin aparılmasına ehtiyac yaranır.

7. İnsan hüquqları bütün digər çoxsaylı hüquqların ilkin başlanğıcını təşkil edirlər. İnsanın və vətəndaşın əsas hüquq və azadlıqları onunla bərabər dünyaya gəlir. Belə ki, insan dünyaya göz açdığı bir gündən bu hüquq və azadlıqlara malik olur. Şəxsiyyətin hüquqi statusunu məhz bu hüquqlar müəyyənləşdirir və onların dövlət tərəfindən qorunması dövlətin əsas öhdəliklərindən biridir.

8. Ümumiyyətlə insan hüquqları yalnız onlara xas olan səciyyəvi xüsusiyyətlərə malikdirlər. Birləşmək hüquq ilə əlaqədar məsələlərin təhlili zamanı onun beynəlxalq və milli hüquq sistemində qarşılıqlı əlaqədə əsas xüsusiyyətləri nəzərdən keçirilməli, birləşmək hüququnun beynəlxalq və dövlətdaxili normativ-hüquqi sistem üçün mühüm əhəmiyyəti vurğulanmalıdır.

9. Birləşmək hüququnun reallaşması formalarından biri kimi ictima təşkilatlarım, qeyri-hökümət təşkilatlarının qeydiyyatı ilə bağlı hazırda Azərbaycan Respublikasında kommersiya qrumları olan məhdud məsuliyyətli cəmiyyətlər üçün müəyyənləşdirilmiş oxşar qaydalar tətbiq olunarsa, ictima təşkilatlarım, qeyri-hökümət təşkilatlarının da qeydiyyatı üçün onlayn qeydiyyat imkanları yaradılarsa bununla da vətəndaşların hazırda ifadə etdikləri bir çox problemlərin həllinə nail olmaq mümkün olacaqdır.

10. Birləşmək hüququnun reallaşdırılması zamanı ortaya çıxan problemlərin aşkar edilməsi və onların qarşısının alınmasında mühüm faktorlardan biri də hüquq yaradıcılığı və mövcud hüquq normalarının səmərəli tətbiqidir. Beynəlxalq hüquq yaradıcılığı üçün isə inkişaf etmiş dövlətlər praktikasının əsas götürülməsi mühüm istiqamət olmalıdır. Bundan başqa, hüquqi məsuliyyət birləşmək hüququnun təmin olmasında preventiv tədbir kimi qeyd edilməli və bir sıra elmi-nəzəri-praktiki tövsiyələr bununla əsaslandırılmalıdır.

11. Dünyanın demokratik ölkələrinin demək olar ki, hamısında əsas insan və vətəndaş hüquqlarını milli qanunvericilik səviyyəsində reqlamentləşdirməklə, beynəlxalq qanunvericilik aktlarının milli

qanunvericiliyə münasibətdə üstünlüyünü təmin edirlər. Belə ki, belə reqlamentləşdirmədən sonra dövlətlər öz üzərilərinə insan hüquq və azadlıqlarının təminatı sahəsində konkret öhdəliklər götürmüş olurlar. Onların bu öhdəliklərə hansı səviyyədə əməl etmələrinə müəyyən beynəlxalq instansiyalar tərəfindən nəzarət həyata keçirilir. Əksər ölkələrin konstitusiyalarına nəzər almaqla, buna əmin olmaq mümkündür. Belə bir fikir əsaslı olaraq qeyd edilməlidir ki, birləşmək hüququ reallaşması yalnız dövlətdaxili və beynəlxalq hüquqi müdafiə mexanizmlərinin vahid əlaqəli sistemində mühüm müsbət nəticələr əldə edilməsi mümkündür.

12. İctimai həyatın müxtəlif sahələrində fəaliyyət göstərən ictimai birliklərin formaşmasını şərtləndirən birləşmək hüququnun hüquq elmində konkret olaraq hansı əsas insan hüquqları kateqoriyasına aid olması haqqında ciddi disskusiyalara səbəb olmuşdur. Tədqiqatlarımız zamanı bəzi tədqiqatçılar tərəfindən birləşmək hüququnun əsasən siyasi hüquqlar kateqoriyasına aid edildiyini müəyyənləşdirdik. Lakin hesab edirik kimi, birləşmək hüququnu birmənalı olaraq yalnızca siyasi hüquqlar kateqoriyasına aid etmək düzgün deyildir.

13. Vətəndaş cəmiyyətini əsas elementi rolunda çıxış edən ictimai birliklərin təbiəti ətrafında təhlillər apararkən qeyri-kommersiya təşkilatlarının səciyyəvi xüsusiyyətinə toxunmaq vacibdir. Belə ki, qeyri-kommersiya təşkilatları həm ictimai birlik kateqoriyasına aid ola bilər, həm də aid olmaya bilər. Bunların arasında sərhədlərin müəyyənləşdirilməsi olduqca vacibdir. Belə sərhəddin müəyyənləşdirilməsi kriteriyası rolunda qeyri-kommersiya təşkilatının mülki-hüquqi münasibətlərində iştirakı səviyyəsi çıxış edir. İctimai birlik olmayan qeyri-kommersiya təşkilatı bir qayda olaraq mülki dövriyyədə fəal iştirakçı rolunda çıxış edir. Ümumiyyətlə, ictimai təşkilatlarla və qeyri-hökumət təşkilatları arasında nisbəti təhlil edərək, belə qənaətə gəldik ki, hüquqi şəxs kimi qeydiyyatdan keçən bütün ictimai birliklər qeyri-kommersiya təşkilatıdırlar. Bu birliklərin dəqiq fərqliliklər normativ hüquqi aktlarla müəyyən olunmalıdır.

14. Tədqiqatlarımız çərçivəsində birləşmək hüququnun reallaşdrılmasının nəticəsi olaraq yaradılan və yaradılmasına və

fəaliyyətinə münasibətdə təşkilati-hüquqi tənzimləmənin tətbiq olundunduğu ictimai birliklər şəxslərin könüllü, qeyri-hökumət, qeyri-kommersiya təşkilatlanması kimi nəzərdən keçirilir. Yəni, bu, bir növ elə birləşmək hüququ azadlığının qanuni reallaşdırılmasının nəticəsidir. Hesab edirik ki, belə elmi yanaşma ictimai təşkilatların hüquqi təbiətini açmağa imkan verir. İctimai birliklər bir tərəfdən vətəndaş cəmiyyəti ilə dövlət arasında qarşılıqlı fəaliyyəti ifadə edən müstəqil kollektiv təsisatlardırlar, digər tərəfdən də birləşmək azadlığı haqqında beynəlxalq səviyyədə qəbul olunmuş imkanların insan hüquqların mühüm növü kimi reallaşdırılması formasıdır.

15. İctimai birliklər haqqında kompleks təhlillər bir daha onların vətəndaş cəmiyyətinin əsas göstəricinin və onun inkişafının ən vacib şərtinin olduğunu sübut etdi. İctimai birliklər vətəndaş cəmiyyəti ilə dövlət hakimiyyəti arasında körpü rolunda çıxış etməklə, cəmiyyətdəki bir çox ziddiyyətlərin aradan qalxmasını şərtləndirir. İctimai birliklər həm də, müvafiq olaraq dövlətin hüquqi xarakterinə dəlalət edir. İctimai birliklərin yaranması və onların fəaliyyətinin genişlənməsi vətəndaş cəmiyyəti quruculuğunun və demokratik pprinsiplərin möhkəmlənməsinin yaxşı perspektivlərindən xəbər verir. Bu birliklərin qeydiyyatı ilə bağlı proseslər daha da sadələşdirilməlidir.

16. İctimai təşkilatların statusunun dinamikası bəşəriyyətin və şəxsiyyətin inkişafını ifadə edir. Beynəlxalq qanunvericilik səviyyədə əsas insan hüquq və azadlıqları sistemində birləşmək hüququnun təsbit olunması müvafiq olaraq ictimai birliklərin beynəlxalq-hüquqi statusunu da müəyyənləşdirmişdir. Birləşmək hüququ birbaşa vətəndaş cəmiyyətinin inkişaf tendensiyası ilə bağlıdır. Bu baxımdan, tədqiqatlarımız belə bir nəticəni şərtləndirdi ki, birləşmək azadlığı hüququna təmin olmadığı halda vətəndaş cəmiyyətinin vəziyyətindən danışmaq üçün heç bir əsas ola bilməz. Birləşmək hüququnun təmin olunması ictimai birliklərin yaranmasının başlıca şərti kimi qiymətləndirilməlidir.

17. Birləşmək hüququ özündə həm də birləşməmək azadlığını ehtiva edir. Odur ki, müəyyən təhdidlər, təyziqlər altında hər hansı bir siyasi birliklərə qoşulmuş insanların hüquqlarının daha effektiv qorunması üsulları işlənib hazırlanmalıdır.

18. Qloballaşma, inteqrasiya prosesləri bəşəriyyətə çoxlu sayda faydalar versə də bəzi hallarda asan inteqrasiya prosesləri radikal dini birliklərin, terror təşkilatlarının də sıralarının genişlənməsinə rəvac verir. Vurğulayırıq ki, qeyd edilən problemlə fərdi qaydada mübarizə aparmaq heç bir dövlətin gücü daxilində mümkün ola bilməz. Bu istiqamətdə mövcud və ehtimal edilən problemlərlə kompleks mübarizə məqsədi ilə beynəlxalq əməkdaşlığın yeni forma və metodları işlənib hazırlanmalıdır.

19. Birləşmək hüququ mütləq hüquq olamadığından onun məhdudlaşdırılması beynəlxalq sənədlərdə də nəzərdə tutulub. Lakin Avropa İnsan Hüquqları Məhkəməsinin birləşmək hüququ ilə bağlı baxdığı işlərin sayına nəzər saldıqda minlərlə kazusun şahidi oluruq. Odur ki, birləşmək hüququnun məhdudlaşdırılması ilə bağlı daha konkret reqlamentlər müəyyənləşdirilməlidir.

20. Dünya təcrübəsinin nəzərdən keçirilməsi sübut edir ki, dövlət birləşmək hüququna real təminat verməklə, üzərinə götürmüş olduğu öhdəlikləri yerinə yetirməklə yanaşı, həm də cəmiyyətdə müəyyən stabilliyə nail olur. Belə ki, birləşmək hüququna təminat nəticəsində yaradılmış ictimai birliklər bir çox hallarda sosial problemlərinin həllinin müəyyən bir qismini öz üzərinə götürməklə, sosial gərginliyin zəifləməsini şərtləndirir. Hətta, müasir dünya dövlətlərinin əksəriyyətində dövlət məqsədli şəkildə daha çox sosial problemlərin həllini ictimai birliklərə həvalə edir. Təbii ki, bunun üçün ictimai birliklərin daha səmərəli fəaliyyət göstərmələri üçün həm normativ-hüquqi, həm də zəruri praktiki şərtlər təmin olunmalıdır. Buradan belə qənaətə gəlmək olur ki, dövlət birləşmək hüququna nə qədər ciddi təminat verirsə, cəmiyyətdə bir o qədər çox siyasi, sosial və iqtisadi tərəqqidən danışmaq mümkün olur. Lakin onu da qeyd etmək lazımdır ki, bununla yanaşı, birləşmək hüququnun reallaşdırılması sahəsində işlək tənzimləmə mexanizmlərinin tətbiq olunması da olduqca vacibdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın başlıca elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan elmində ilk dəfə olaraq birləşmək hüququnun insan hüquqları sistemində yerinin müəyyənləşdirilməsinə cəhd edilmişdir. Bundan başqa, tədqiqatlarımız bir sıra elmi yeniliklərin əldə olunmasını şərtləndirmişdir. İlk dəfə olaraq,

Azərbaycan Respublikasında birləşmək hüququnun normativ-hüquqi əsaslarının beynəlxalq qanunvericilik aktlarınının müddəalarına uyğunluğunun müəyyənləşdirilməsi istiqamətində təhlillər aparılmışdır. Müəyyənləşdirilmişdir ki, Azərbaycan Respublikasında birləşmək hüququnun normativ-hüquqi əsasları beynəlxalq qanunvericilik aktlarının müddəaları əsasında formalaşdırılmışdır. Müəyyənləşdirilmişdir ki, birləşmək hüququnun məhdudlaşdırılması imkanları milli və beynəlxalq qanunvericilik aktlarında təsbit olunsa da, bu imkandan sui-istifadə olunmasını qarşısını alacaq universal və işlək mexanizmlər dəqiq bəlli deyil. Məlum oldu ki, ictimai birliklər vətəndaşların ümumi maraqlarının birgə qorunması istiqamətində olduqca güclü alət rolunda çıxış etməklə yanaşı, onların fəaliyyəti tənzimlənmədiyi hallarda cəmiyyət üçün ciddi təhlükələr yarada bilər. Birləşmək hüququnun nəzarətsiz reallaşdırılması bəzən digərilərinin əsas hüquq və azadlıqlarının pozulmasına səbəb bilər. Bu baxımdan, birləşmək hüququnun qanun çərçivəsində məhdudlaşdırılmasının universal prinsiplərinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Birləşmək hüququ vətəndaş cəmiyyətinin formalaşmasının ən vacib institusional vasitələrindən biridir. Tədqiqatlarımıza əsasən gəldiyimiz ən mühüm nəticələrdən biri də ondan ibarətdir ki, birləşmək azadlığı bazar iqtisadiyyatının inkişafında və fəaliyyətində olduqca təsirli rol oynayır. Bildiyimiz kimi, real bazar iqtisadiyyatı yalnız demokratiya şəraitində səmərəli fəaliyyət göstərə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrinin nəzəri əhəmiyyətini onunla əsaslandırmaq mümkündür ki, onlar hər şeydən öncə birləşmək hüququnun mahiyyəti haqqında elmi-nəzəri təsəvvürləri dərinləşdirir. Həmçinin, vətəndaş cəmiyyəti quruculuğu prosesi ilə birləşmək hüququnun reallaşdırılması arasındakı dialektik əlaqə haqqında təsəvvürlərin formalaşması baxımından da tədqiqatın nəticələrinin mühüm nəzəri əhəmiyyətini qeyd etmək mümkündür. Bu nəticələrdən sonrakı elmi-tədqiqatlar zamanı istifadə etmək mümkündür. Tədqiqat işində gəlinən nəticələrdən birləşmək hüququnun normativ-hüquqi bazasının təkmilləşdirilməsi prosesində istifadə etmək mümkündür. Bundan başqa, dissertasiya tədris-metodiki vəsaitlərin hazırlanması üçün də yararlı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas müddəaları,

nəticələr və praktik tövsiyələr AR, ABŞ, Belçika, Türkiyə, Rusiya Federasiyası, Latviya və Ukraynanın nüfuzlu elmi jurnallarında və elmi məqalə toplularında açıqlanmış, müəllifin dərc edilmiş işlərində, elmi praktik konfranslarındakı məruzələrinin tezislərində və çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Bakı Dövlət Univeristetinin Hüquq fakültəsinin Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi girişdən, on beş paraqraf və otuz iki bəndi özündə birləşdirən beş fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları nəzəri və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli 3 paraqraf 9 bənddən ibarət olmaqla **"Birləşmək hüququnun hüquqi təbiəti və insan hüquqları sistemində yeri"** adlanır. Bu fəslin ilk paraqrafında Birləşmək hüququ: mahiyyəti, meydana gəlməsi və tarixi inkişafı mərhələləri tədqiq olunur, birləşmək (assosiasiya) azadlığının anlayışı və hüquqi təbiəti, "Birləşmək" və "Toplaşmaq" anlayışlarının hüququ fərqi, birləşmək hüququ ideyalarının formalaşması və müasir mərhələdə birləşmək hüququnun mövcud vəziyyətinə diqqət çəkilir.

Müəllif göstərir ki, vətəndaşların birləşmək hüquqları problemi hazırkı mərhələdə də kifayət qədər fəal tədqiq olunmasına baxmayaraq, məsələnin kökləri tarixin kifayət qədər dərinliklərin gedib çıxır. Birləşmək hüququnun tarixi təbii ki, ictimai institutların meydana gəlməyə başladığı dövrdən başlayır. Birləşmək hüququ haqqında müasir təsəvvürlərin əsasında dayanacaq fikirlərə

Aristotelin, Platonun, Siseronun, Epikürün, Mark Averilinin və s. əsərlərində rast gəlmək mümkündür ki, bu da bir daha birləşmək hüququ haqqında ideyaların lap qədim dövrlərdən insanlara tanış olmasını isbat edir. Demək olar ki, tarixi inkişafın bütün mərhələlərində birləşmək hüququ ətrafında qızğın diskussiyalar getmişdir. Belə ki, Martin Lyuterin, Akvinalı Fomanın və başqalarının insan ləyaqəti və cəmiyyətdə şəxsiyyətin statusu problemləri ətrafında qiymətli fikirlər irəli sürdükləri məlumdur. Yeni dövrdə birləşmə hüququ ilə bağlı ciddi nəzəriyyələrin meydana gəlməsi probleminin aktuallıq səviyyəsinin dinamik olaraq yüksəlməsinə dəlalət edirdi.

Qədim Misirdə və Qədim Şərq ölkələrində ictimai institutların meydana gəlməsi və inkişafı əsasən peşəkar birliklərin yaranması yolu ilə baş tutmuşdur. Yəni müəyyən peşə sahibləri birgə fəaliyyətlərini təşkil etməklə, həm də ictimai birliklərin ilkin nümunələrini yaratmışlar. Aydındır ki, belə peşəkar birliklərin yaradılmasında başlıca məqsəd ümumi rifahı və ya maraqları təmin etməkdən ibarət olmuşdur. Qədim Yunanıstanda isə vətəndaşların birlikləri tamamilə yeni məna kəsb etməyə başladı və bir çox hallarda hətta, siyasi məqsədlərə xidmət edirdilər. Qədim Romada ictimai birliklər ilkin olaraq sosial birliklərin cəmi kimi formalaşmışdır ki, bu da sonradan şirkətlərin korporasiyaların formalaşmasında kifayət qədər təsirli rol oynamışdır. İctimai birliklərin yaranma tarixinin araşdırılması aydın göstərir ki, qeyri-dövlət birliklərinin formalaşması cəmiyyətin və dövlət institutlarının inkişafı ilə birbaşa bağlıdır. Qeyri-dövlət birlikləri də öz növbəsində cəmiyyətin və dövlətin inkişafında əhəmiyyətli rol oynamışlar. Orta əsrlər dövründə Qərbi Roma İmperiyasının süqutundan sonra Avropada qeyri-dövlət birlikləri ilk universitetlərin meydana gəlməsi inkişaf etməyə başladı. Belə ki, universitetlərdə tələbələrin və müəllimlərin həmkarlar birliklərinin meydana gəlməsi qeyri-dövlət birliklərinin formalaşması üçün ilkin zəmin yaratmış oldu. Bununla yanaşı, Avropada tacirlərin və sahibkarların birlikləri daha ciddi əhəmiyyət kəsb edirdi.

Orta əsrlər Avropasında və Renessans dövründə qeyri-dövlət sektorunun meydana gəlməsinin əsasında vətəndaşların birliklərinin

iki forması dayanırdı: həmkarlar (peşəkar) birliklər; sahibkar ittifaqları.

Birinci fəslin ikinci paraqrafında Birləşmək hüququnun səciyyəvi xüsusiyyətləri sadalanır, birləşmə hüququnun insanın və vətəndaşın konstitusiya hüquqları sistemində yeri, birləşmək hüququnun formaları, birləşmək hüququnun reallaşdırılmasında mövcud problemlər göstərilir və birləşmək hüququ hüququ dövlətin əsas elementi kimi xarakterik cəhətləri əsaslandırılır.

İddiaçı qeyd edir ki, birləşmək hüququ həyat fəaliyyətinin müxtəlif sahələrini əhatə etdiyinə görə kompleks təbiətə malikdir. Qanunvericilik səviyyəsində ayrı-ayrı ictimai təşkilat növlərinin yaradılması və fəaliyyəti məsələləri tənzimlənir. Müasir mərhələdə demokratik inkişaf yolunu tutmuş istənilən ölkədə ictimai təşkilatların fəaliyyət göstərməsinin nəzəriyyəsi və təcrübəsi vətəndaş cəmiyyəti quruculuğunun vacib elementini təşkil edir. İctimai təşkilatların fəaliyyətlərinin hüquqi tənzimlənməsi və onların hüquqlarının qorunması hüquqi dövlətin müxtəlif sahələrdə inkişafının əsasını təşkil edir. Bu baxımdan birləşmək hüququnun insanın və vətəndaşın konstitusiya hüquqları sistemində yerinin dəqiqliklə müəyyənləşdirilməsi tədqiqatçıların ən vacib elmi fəaliyyət istiqamətlərindən birini təşkil edir. Tədqiqatlar sübut edir ki, hüquq elmində ümumiyyətlə, insan və vətəndaş hüquq və azadlıqlarının təsnifatına dair vahid yanaşma mövcud deyildir. Bu səbəbdən insan və vətəndaş hüquq və azadlıqlarının təsnifatında müəyyən fərqlər özünü aydın göstərir. Buna baxmayaraq, insan və vətəndaşın konstitusiya hüquqlarının ümumi şəkildə siyasi, iqtisadi, sosial, mədəni və s. istiqamətdə təsnifatı aparılır. Birləşmək azadlığı hüququnun siyasi hüquqlar kateqoriyasına aid edilməsini əksər tədqiqatçılar dəstəkləyirlər. Birləşmək hüququ insan birliklərinin və ya təşkilatların cəmiyyətin siyasi həyatında iştirakı imkanlarını ehtiva edir. Müasir demokratik hüquqi dövlətlərin Konstitusiyalarında bu məqam dəqiqliklə ifadəsini tapır.

Bu fəslin 3-cü paraqrafında birləşmək hüququnun vətəndaş cəmiyyətinin formalaşmasına təsiri araşdırılıb. Paraqraf daxilində vətəndaş cəmiyyətinin formalaşmasının əsasları təhlil olunub və vətəndaş cəmiyyəti birləşmək hüququ "məhsulu" kimi əsaslandırılıb.

Tədqiqatçı bildirir ki, vətəndaş cəmiyyətinin mövcudluğu, onun formalaşması bərabər vətəndaş hüququnu, şəxsiyyət müstəqilliyini əks etdirən yeni ictimai-fərd institutları olmadan mümkün deyildir. İnsan yalnız o zaman əsl vətəndaşa çevrilir ki, demokratik prinsiplərə əsaslanan yüksək əxlaqi keyfiyyətlərə, şəxsi ləyaqət, müstəqillik, fərdilik duyğularına, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmaq keyfiyyətlərinə malik olsun, ümumbəşəri qanun-qaydaları şəksiz yerinə yetirsin. Şəxsiyyətin bu yeni növü ictimai birliklər və institutlarla başqa cür münasibətdə yaradılır. Təzə ictimai fərdlər kollektivlərdə, nəinki ərimirlər, əksinə məhz bir fərd kimi, şəxsi sosial mahiyyət kəsb edir, mənəviyyatca yüksəkdə durur, başqaları ilə münasibətlərini təmiz, həqiqi vətəndaş səviyyəsində qururlar. Buna nail olmaqdan ötrü isə adamların psixologiyası, dünyagörüşü, iqtisadi və sosial statusu kökündən dəyişməlidir.

Cəmiyyətin belə vətəndaşlarının olması üçün o, aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərməlidir:

- siyasi aləmdə bütün insanların hüquq və azadlıqlarının bərabərliyi;
- vətəndaşların hüquq və azadlıqlarının beynəlxalq hüquqi normalara uyğun şəkildə qorunması;
- fərdlərin iqtisadi müstəqilliyi, həm də həmin müstəqillik hər kəsin xüsusi mülkiyyətə və halal əməyə görə layiqincə qiymətləndirilmək haqqına söykənməsidir;
- vətəndaşların dövlətdən və partiyalardan asılı olmayan, onların maraqlarına, professional səviyyəsinə cavab verən birliklərdə birləşməsi üçün qanun tərəfindən təminat verilmiş imkanlarının yaradılması;
- partiya və hərəkat yaratmaqda vətəndaşların müstəqilliyi;
- vətəndaşların müstəqil, mədəni, mənəviyyatca saf, sosial cəhətdən fəal, cəmiyyət qarşısında məsul fərd kimi formalaşması üçün elmin, mədəniyyətin, təlim-təhsil ocaqlarının inkişafına lazımi maddi-texniki, psixoloji-mənəvi şəraitin yaradılması;
- dövlət-vətəndaş cəmiyyətləri arasında münasibətləri tənzimləyən, sabitləşdirən, ikincilərin fəaliyyət təhlükəsizliyini təmin edən mexanizmin mövcudluğu. Bu mexanizm, istər formal

olsun, istərsə də qeyri-formal dedikdə qanunvericilik aktları, ölkənin müxtəlif orqanlarına xalq nümayəndələrinin demokratik seçimi, özünüidarə institutları və s. tutulur.

Sadalanan prinsiplər əsasında fəaliyyət göstərən cəmiyyət totalitar rejimin əvəzində yaradılmış demokratik, hüquqi bir dövlətlə üzvi vəhdətdə duruş gətirə bilər.

Dissertasiya işinin ikinci fəsli də 3 paraqraf 9 bənddən ibarətdir. Ümumilikdə fəslin adı **"Birləşmək hüququnun təmin olunması formaları və mexanizləri"** kimi müəyyən olunub. Bu fəsil çərçivəsində ilk olaraq birləşmək hüququnun təmin olunması: göstəriciləri və mexanizmlərinə diqqət çəkilib, birləşmək hüququnun subyektlər dairəsi müəyyən edilib və nümunə olaraq birliklərdə birləşmək hüququnun normativ əsasları təhlil olunub.

Qeyd olunur ki, postsovet respublikalarının konstitusiyalarında vətəndaşların Konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərəcək siyasi partiyalar və ictimai təşkilatlar yaratmaq hüquqları təsbit olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasında birləşmək hüququ hər bir kəsin gəlir əldə etmək məqsədi daşımayan istənilən birliyin, siyasi partiyanın, həmkarlar ittifaqının yaradılması imkanları və onlara qoşulmaq hüququ kimi təsbit olunmuşdur. Dünya dövlətlərinin əksəriyyətinin konstitusiyasında birləşmək hüququnun aydın təsbit edilməsi onun yüksək əhəmiyyətinə dəlalət edir. Həqiqətən, birləşmək hüququ insanların konkret maraqlarının qorunmasını şərtləndirməklə yanaşı, həm ümumi inkişafa ciddi töhfə verə bilər. Birləşmək hüququ əksər ictimai problemlərin dövlətin iştirakı və ya müdaxiləsi olmadan həll etməyə imkan verir. Konstitusiya-hüquq tənzimlənməsi dövlət və ictimai birliklərin qarşılıqlı münasibətlərini əhatə edir. Dövlət ictimai birliklərin işlərinə qarışmasa da, onların sərbəst fəaliyyətləri üçün təminat verir. Bu, elə birləşmək hüququna təminat verilməsi kimi nəzərdən keçirilməlidir.

Birləşmək hüququnun təmin olunmasından bəhs edərkən, nəzərə çatdırmaq lazımdır ki, o, bir sıra digər konstitusiya hüquqları ilə sıx əlaqəlidir. Məsələn, birləşmək toplantılar, mitinqlər, nümayişlər və s. təşkil olunmuş kollektiv tədbirlərdə də ifadəsini tapır. İctimai təşkilatlar özlərinin fəaliyyətləri, planları, məqsəd və

vəzifələri ilə bağlı sərbəst şəkildə informasiya yaymaq imkanlarını əldə etməkdə maraqlı olurlar. Bundan başqa, onlar hakimiyyət orqanlarına təkliflər verirlər, məhkəmələrdə öz üzvlərinin maraqlarını müdafiə edirlər. Deməli, birləşmək hüququ mütləq kütləvi informasiya azadlığı, fikir və söz azadlığı ilə sıx əlaqəlidir. Bundan başqa, birləşmək hüququ sıx şəkildə hüquqi dövlət anlayışı ilə əlaqəlidir. Hüquqi dövlət insan hüquqlarının qorunmasının işlək mexanizmi rolunda çıxış edir. Məhz hüquqi dövlətin mövcudluğu birləşmək hüququnun təmin olunmasını şərtləndirir. Belə ki, hüquqi dövlət müxtəlif siyasi partiyaların, ictimai birliklərin sərbəst fəaliyyət göstərməsi üçün bütün zəruri şərtləri təmin edir.

Fəslin ikinci paraqrafında birləşmək hüququ ayrı-ayrı ölkələrin milli qanunvericilik və praktiki təcrübəsininin sintezində araşdırılıb. Regionun böyük dövləti kimi Rusiya Federasiyası, qonşu ölkə olaraq Gürcüstan Respublikası təcrübsi geniş təhlil olunub. Eyni zamanda bu paraqrafda birləşmək hüququ sahəsində aparıcı Avropa Birliyi ölkələrinin təcrübəsi, Amerika dövlətlərinin təcrübəsi və Afrika dövlətləri təcrübəsinə diqqət çəkilib, onların müvafqiq qanunvericilik bazaları və bu hüququn praktiki realizə mexanizmləri tədqiq olunub, müqayisəli təhlil aparılıb.

Sözügedən fəslin sonuncu paraqrafında birləşmək hüququnun təmin olunması prinsipləri müəyyən olunur, ictimai təşkilatlarla dövlət hakimiyyəti orqanları arasında münasibətlərin hüquqi əsasları, birləşmək hüququnun məhdudlaşdırılmasının hüquqi əsasları və perespektiv birləşmək hüququ formaları haqqında nəzəri ümumiləşdirmələr aparılır.

Dissertasiya işinin üçüncü fəsli 2 paraqraf 5 bənddən ibarətdir. Fəslin adı **“Birləşmək hüququnun beynəlxalq və milli (dövlətdaxili) hüquqi mənbələri”** kimi müəyyən olunub. Bu fəsil çərçivəsində birləşmək hüququnu tənzimləyən universal xarakterli beynəlxalq aktlar müəyyən edilib. İlk paraqrafda Ümumdünya insan hüquqları deklarasiyasında birləşmək hüququ, Beynəlxalq Əmək Təşkilatının Konvensiyasında birləşmək hüququ və 1966-cı il BMT Paktlarında Birləşmək hüququnun normativ hüquqi məzmunu tədqiq olunub.

Fəslin ikinci paraqrafında birləşmək hüququnu tənzimləyən

regional xarakterli beynəlxalq aktlar müəyyən olunub. Bu paraqrafda insan hüquqları sahəsində əsas mənbələrdən olan “İnsan hüquq və əsas azadlıqları haqqında Avropa konvensiyası” və “Avropa Sosial Xartiyası” birləşmək hüququnun normativ-hüquqi mənbəyi kontestində təhlil olunub.

Dissertasiya işinin dördüncü fəsli 5 paraqraf 3 benddən ibarətdir. Fəslin adı **“Birləşmək hüququnun təmin olunmasının beynəlxalq təşkilati mexanizmləri”** adlanır. Bu fəsil çərçivəsində ilk olaraq birləşmək hüququ sahəsində beynəlxalq təşkilati mexanizmlərin hüquqi əsasları müəyyən olunur. Nümunədə birləşmək hüququnun təminatı sahəsində BMT mexanizmləri, Beynəlxalq Əmək Təşkilatında birləşmək hüququnun təminat mexanizmləri, birləşmək hüququnun təminatı sahəsində Avropa Birliyi mexanizmləri, birləşmək hüququnun təminatı sahəsində Avropa Şurasının mövcud mexanizmləri həm müəyyən olunub, həm də yuxarıda sadaladığım digər mexanizmlərlə müqayisəli təhlil olunub.

Eyni zamanda bu fəsildə birləşmək hüququ ilə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətin hüquqi əsasları və birləşmək hüququ ilə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin icraatında olmuş işlərə praktiki nümünələr kimi istinadlar olunub, bu kazuslardan doğan prisidentlərin perespetiv əhəmiyyəti əsaslandırılmışdır.

Fəsil çərçivəsində birləşmək hüququnun təminatı sahəsində Müstəqil Dövlətlər Birliyi (MDB) mexanizmləri də təhlil olunubdur.

Dissertasiya işinin beşinci fəsli 2 paraqraf 6 bənddən ibarətdir. Fəslin adı **“Azərbaycan Respublikasında birləşmək hüququnun konstitusion əsasları və təmin olunması vəziyyəti”** olaraq müəyyən edilib. Fəsil çərçivəsində ilk olaraq Azərbaycan Respublikasında birləşmək hüququnun konstitusion-hüquqi əsasları müəyyən edilib və birləşmək hüququ ilə əlaqəli Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar və onların doğurduğu hüquqi nəticələr təhlil olunub.

Bu fəsildə Azərbaycan Respublikasında birləşmək hüququnun təmin olunması: mövcud vəziyyət və perspektivləri də hüquqi kontekstdə nəzərdən keçirilibdir. Eyni zamanda bu fəsildə Azərbaycan Respublikasında Qeyri hökümət təşkilatları (QHT)

yaradılmasının və fəaliyyətinin hüquqi əsasları, siyasi partiyalar yaradılmasının və fəaliyyətinin hüquqi əsasları, dini birliklərin yaradılmasında və fəaliyyətinin hüquqi əsasları, həmkarlar İttifaqlarının yaradılmasının və fəaliyyətinin hüquqi əsasları və s. əlaqəli məsələlər nəzəri və praktiki nümunələrlə geniş təhlil olunmuşdur.

Dissertasiya işinin **Nəticə** hissəsində birləşmək hüququnun insan hüquqları sistemində yerinin müəyyənləşdirilməsi istiqamətində apardığımız elmi-tədqiqat işləri bir sıra mühüm nəticələrə gəlməyə imkan vermişdir. Aparılmış tədqiqatın nəticələri 28 bənddə ümumiləşdirilmişdir:

1. Tədqiqatlarımıza və təhlillərimizə əsasən gəldiyimiz ilkin nəticə ondan ibarətdir ki, insan hüquqları haqlı olaraq konstitusionalizmin mərkəzi dayağını təşkil edən kateqoriya kimi qiymətləndirilir. Bu fikri dəstəkləyərək əsaslandırmaq olar ki, insan hüquqları hüquqi fenomen kimi ictimai münasibətlərin konstitusiya-hüquqi tənzimləməsinin məzmununu ifadə edir. Demokratik hüquqi dövlətlər üçün vətəndaşlara dövlətin ictimai-siyasi həyatında sərbəst iştirak etməyə imkan verən konstitusion hüquqlar daha əhəmiyyətli kateqoriya kimi qiymətləndirilməlidir. Belə hüquqlardan ən önəmlisinin məhz vətəndaşların birləşmək konstitusiya hüququnun olduğunu tədqiqatlarımız nəticəsində bir daha dəqiqləşdirdik. Birləşmək hüququ vətəndaşlara öz maraqlarının birgə qorunması üçün təminat verir, digər konstitusiya hüquqlarının mövcudluğu üçün yaxşı zəmin yaradır. Məsələn, toplaşmaq azadlığı, söz azadlığı kimi hüquqların təmin olunmasında birləşmək hüququ əsas rolunda çıxış edir. Həqiqətən də, apardığımız təhlillər nəticəsində bir daha qətiləşdirdik ki, birləşmək hüququ təmin olunmadan bu hüquqlar deklarativ xarakter daşıyar.

2. Tədqiqatlarımızın nəticələrinə əsasən qeyd edə bilərik ki, insan hüquqlarını vətəndaş hüquqlarından ayıran sərhədlər mövcuddur. Bu istiqamətdə daha dərin təsəvvürlərə malik olmaq üçün insan hüquqları ilə vətəndaş hüquqları arasında sərhədlərin müəyyənləşdirilməsi vacib şərt rolunda çıxış edir. Burada başlıca səciyyəvi xüsusiyyət kimi nəzərə çatdıra bilərik ki, insan hüquqları fərddən ayrılmaz olmaqla, təbii əsaslara söykənir. İnsan hüquqlarının

dövlətin qanunvericilik aktlarında ifadə olunb-olunmaması onun mövcudluğuna hər hansı təsir göstərmir. Yəni, insan hüquqları bütün hallarda mövcuddur. Müvafiq olaraq, insan hüquqlarının ərazi və milli müstəvilərdə nəzərdən keçirilməsi doğru olmaz. Tədqiqatlarımız bir daha qətiləşdirdi ki, insan hüquqları beynəlxalq hüquqi tənzimlənmənin obyekti rolunda çıxış edir. Təbii ki, vətəndaş hüquqlarının bazasında elə insan hüquqları dayanır. Belə ki, dövlət qanunvericilik aktlarında təsbit olunduğu andan insan hüquqları vətəndaş hüquqları kimi səciyyələndirilir. Çünki, burada artıq dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsi məsələsi ortaya çıxır. İnsan hüquqları ilə vətəndaş hüquqlarının sərhədlərini müəyyən edən məqam məhz bundan ibarətdir. Lakin onu da qeyd etmək lazımdır ki, əksər hallarda "insan hüquqları", "vətəndaş hüquqları" və "şəxsiyyətin hüquqları" sinonim kimi təqdim olunurlar. Bu anlayışlar arasında sərhədlərin müəyyənləşdirilməsi konkret məqamlara xidmət edir. Məsələn, insan hüquqlarının təbiətini daha dəqiq izah etmək üçün bəzən sərhədlənmənin aparılmasına ehtiyac yaranır.

3. İnsan hüquqları bütün digər çoxsaylı hüquqların ilkin başlanğıcını təşkil edirlər. İnsanın və vətəndaşın əsas hüquq və azadlıqları onunla bərabər dünyaya gəlir. Belə ki, insan dünyaya göz açdığı bir gündən bu hüquq və azadlıqlara malik olur. Şəxsiyyətin hüquqi statusunu məhz bu hüquqlar müəyyənləşdirir və onların dövlət tərəfindən qorunması dövlətin əsas öhdəliklərindən biridir. Ümumiyyətlə insan hüquqları yalnız onlara xas olan səciyyəvi xüsusiyyətlərə malikdirlər. Tədqiqatlarımız müəyyənləşdirməyə imkan verdi ki, dünyanın demokratik ölkələrinin demək olar ki, hamısında əsas insan və vətəndaş hüquqlarını milli qanunvericilik səviyyəsində reqlamentləşdirməklə, beynəlxalq qanunvericilik aktlarının milli qanunvericiliyə münasibətdə üstünlüyünü təmin edirlər. Belə ki, belə reqlamentləşdirmədən sonra dövlətlər öz üzərilərinə insan hüquq və azadlıqlarının təminatı sahəsində konkret öhdəliklər götürmüş olurlar. Onların bu öhdəliklərə hansı səviyyədə əməl etmələrinə müəyyən beynəlxalq instansiyalar tərəfindən nəzarət həyata keçirilir. Əksər ölkələrin konstitusiyalarına nəzər almaqla, buna əmin olmaq mümkündür. Belə ki, müasir Avropa ölkələrinin

Konstitusiyalarında insan hüquq və azadlıqlarının qorunmasının istənilən hakimiyyətin öhdəliyi olması ifadə olunmuşdur.

4. Birləşmək hüququnun beynəlxalq-hüquqi və ölkədaxili vəziyyətinin nəzərdən keçirilməsi göstərmişdir ki, müasir mərhələdə o, dünya ölkələrinin ali qanunvericiliyi səviyyəsində ifadəsini tapmışdır. Beynəlxalq qanunvericilik aktlarında, konvensiyalarda birləşmək hüququ dəqiqliklə təsbit olunmuşdur. Bu konvensiyaları ratifikasiya etmiş dövlət isə, öz üzərilərinə müəyyən öhdəliklər götürmüşlər. Azərbaycan Respublikasında birləşmək hüququ eyni zamanda bir neçə hüququn reallaşdırılmasını nəzərdə tutur. Məsələn, həmkarlar ittifaqlarında birləşmək hüququ, siyasi partiyalarda birləşmək hüququ, siyasi partiya və həmkarlar ittifaqı olmayan digər birliklərdə birləşmək hüququ və s. İctimai həyatın müxtəlif sahələrində fəaliyyət göstərən ictimai birliklərin formaşmasını şərtləndirən birləşmək hüququnun hüquq elmində konkret olaraq hansı əsas insan hüquqları kateqoriyasına aid olması haqqında ciddi disskusiyalara səbəb olmuşdur. Tədqiqatlarımız zamanı əksər tədqiqatçılar tərəfindən birləşmək hüququnun əsasən siyasi hüquqlar kateqoriyasına aid edildiyini müəyyənləşdirdik. Lakin hesab edirik kimi, birləşmək hüququnu birmənalı olaraq yalnızca siyasi hüquqlar kateqoriyasına aid etmək düzgün olmazdı. Həmçinin, bu hüquqların digər hüquqlar kateqoriyasına aid edilməsini dəstəkləyən tədqiqatçılar da çoxluq təşkil edirlər. Belə ki, birləşmək hüququ təkcə siyasi məqsədlərə çatmaq və ya siyasi motivlərlə fəaliyyət göstərən birliklərin yaradılmasını və onların işində iştirak etməyi nəzərdə tutmur. Tamam fərqli xarakterli maraqların qorunması istiqamətində də ictimai birliklərin yaradılması və onların fəaliyyətində iştirak etmək təcrübədə kifayət qədər tez-tez müşahidə olunur. Bir çox əlamətlərinə görə birləşmək hüququnu fərdi hüquqlar kateqoriyasına aid etmək daha məntiqli görünür. Lakin belə yanaşma kontekstində siyasi xarakterli təşkilatların yaradılması zamanı birləşmək hüququnun legitimliyi məsələsi ciddi sual qarşısında qalır.

5. Vətəndaş cəmiyyətini əsas elementi rolunda çıxış edən ictimai birliklərin təbiəti ətrafında təhlillər apararkən qeyri-kommeriya təşkilatlarının səciyyəvi xüsusiyyətinə toxunmaq vacibdir. Belə ki, qeyri-kommersiya təşkilatları həm ictimai birlik

kateqoriyasına aid ola bilər, həm də aid olmaya bilər. Bunları arasında sərhədlərin müəyyənləşdirilməsi olduqca vacibdir. Belə sərhəddin müəyyənləşdirilməsi kriteriyası rolunda qeyri-kommerisiya təşkilatının mülki-hüquqi münasibətlərində iştirakı səviyyəsi çıxış edir. İctimai birlik olmayan qeyri-kommersiya təşkilatı bir qayda olaraq mülki dövriyyədə fəal iştirakçı rolunda çıxış edir. Gəlir əldə etmək belə qeyri-kommersiya təşkilatlarının fəaliyyətinin əsas məqsədi olmasa da, bu məqsəd demək olar ki, belə təşkilatların fəaliyyətində həmişə təqib olunur. İctimai birliklərin fəaliyyətində isə gəlir əldə etmək məqsədi demək olar müşahidə olunmur və ya çox əhəmiyyətsiz dərəcədə olur. İctimai birliklər həmişə ictimai həyatın mənəvi-mədəni, yaxud siyasi müstəvilərində fəaliyyət göstərirlər. Digər qeyri-kommersiya təşkilatları heç vaxt siyasi müstəvidə fəaliyyət göstərmirlər. Onların mənəvi-mədəni sahədə fəaliyyəti isə, sahibkarlıq fəaliyyəti ilə, yəni, cəmiyyətin iqtisadi sahəsindəki fəaliyyətlə bağlı olur. Ümumiyyətlə, ictimai təşkilatlarla və qeyri-hökumət təşkilatları arasında nisbəti təhlil edərək, belə qənaətə gəlmək mümkündür ki, hüquqi şəxs kimi qeydiyyatdan keçən bütün ictimai birliklər qeyri-kommersiya təşkilatıdırlar. Lakin heç də bütün qeyri-kommersiya təşkilatları ictimai birliklər kimi səciyyələndirilmir.

6. Tədqiqatlarımız çərçivəsində birləşmək hüququnun reallaşdrılmasının nəticəsi olaraq yaradılan və yaradılmasına və fəaliyyətinə münasibətdə təşkilati-hüquqi tənzimləmənin tətbiq olundunduğu ictimai birliklər şəxslərin könüllü, qeyri-hökumət, qeyri-kommersiya təşkilatlanması kimi nəzərdən keçirilir. Yəni, bu, bir növ elə birləşmək hüququ azadlığının qanuni reallaşdırılmasının nəticəsidir. Hesab edirik ki, belə elmi yanaşma ictimai təşkilatların hüquqi təbiətini açmağa imkan verir. İctimai birliklər bir tərəfdən vətəndaş cəmiyyəti ilə dövlət arasında qarşılıqlı fəaliyyəti ifadə edən müstəqil kollektiv təsisatlardırlar, digər tərəfdən də birləşmək azadlığı haqqında beynəlxalq səviyyədə qəbul olunmuş imkanların insan hüquqların mühüm növü kimi reallaşdırılması formasıdır. İctimai birliklər haqqında kompleks təhlillər bir daha onların vətəndaş cəmiyyətinin əsas göstəricinin və onun inkişafının ən vacib şərtinin olduğunu sübut etdi. İctimai birliklər vətəndaş cəmiyyəti ilə dövlət hakimiyyəti arasında körpü rolunda çıxış etməklə, cəmiyyətdəki bir

çox ziddiyyətlərin aradan qalxmasını şərtləndirir. İctimai birliklər həm də, müvafiq olaraq dövlətin hüquqi xarakterinə dəlalət edir. İctimai birliklərin yaranması və onların fəaliyyətinin genişlənməsi vətəndaş cəmiyyəti quruculuğunun və demokratik pprinsiplərin möhkəmlənməsinin yaxşı perspektivlərindən xəbər verir. Birləşmək azadlığı hüququnun reallaşdırılması və ya təminatı səviyyəsini müəyyənləşdirən zaman da ictimai birliklərin yaranması və fəaliyyətiimkanlarına diqqət yetirmək lazımdır. İctimai birliklər yaranması və fəaliyyəti ilə bağlı vəziyyət bir növ birləşmək hüququnun reallaşdırılması səviyyəsinin indikatoru rolunda çıxış edir.

7. İctimai təşkilatların statusunun dinamikası bəşəriyyətin və şəxsiyyətin inkişafını ifadə edir. Beynəlxalq qanunvericilik səviyyədə əsas insan hüquq və azadlıqları sistemində birləşmək hüququnun təsbit olunması müvafiq olaraq ictimai birliklərin beynəlxalq-hüquqi statusunu da müəyyənləşdirmişdir. Belə ki, birləşmək hüququnun təmin olunması ictimai birliklərin yaranmasının başlıca şərti kimi qiymətləndirilməlidir. Deməli, birləşmək hüququ birbaşa vətəndaş cəmiyyətinin inkişaf tendensiyası ilə bağlıdır. Bu baxımdan, tədqiqatlarımız belə bir nəticəni şərtləndirdi ki, birləşmək azadlığı hüququna təmin olmadığı halda vətəndaş cəmiyyətinin vəziyyətindən danışmaq üçün heç bir əsas ola bilməz. Apardığımız tədqiqatlara əsasən gəldiyimiz nəticələrdən biri də ondan ibarət oldu ki, ümumi siyasi, sosial və digər xarakterli maraqların müdafiəsi məqsədi ilə yaradılmış ictimai təşkilatlar dünya dövlətlərinin ictimai-siyasi həyatlarında dərin dəyişikliklər və hətta, siyasi və iqtisadi transformasiyaları şərtləndirmək gücündə olmuşlar. Məsələn, tarixdən yaxşı məlum olan ABŞ və Fransa inqilabları zamanı ictimai təşkilatlar ən təsirli hərəkətverici element rolunda çıxış etmişlər. Lakin bununla yanaşı, ictimai təşkilatlarının yaradılmasının ilkin başlanğıcını təşkil edən birləşmək hüququnun məhdudlaşdırılması cəmiyyəti bir çox ziddiyyətlərdən və qarşıdurmadan qoruyur. Belə ki, qanun çərçivəsində, konkret prinsiplərin gözlənilməsi ilə qorunmayan birləşmək hüquqları təhlükəsizlik, ictimai-asayiş və başqalarının əsas hüquq və azadlıqlarının reallaşdırılması üçün ciddi problemlərin meydana gəlməsini şərtləndirə bilər.

8. Dünya dövlətlərinin və ya ümumiyyətlə, beynəlxalq təcrübənin dərindən təhlili nəticəsində məlum olmuşdur ki, qeyri-hökumət təşkilatlarının yaradılması zamanı istinad edilən prinsiplər demək olar ki, identiklik təşkil edirlər. Ümumiləşdirmə apararaq, bu prinsipləri aşağıdakı kimi təqdim edə bilərik:

-könüllülük;

-ümumi maraqların və məqsədlərin olması;

-birliklərin qeyri-dövlət xarakterli olması;

-birliyin işində üzvlərin iştirakının şəxsi xarakterli olması;

-vahid təşkilatçılığın olması;

-birliyin yaradılmasının və fəaliyyətinin qanuniliyi.

Qeyd etmək lazımdır ki, ictimai birliklərin yaradılmasının və fəaliyyətinin universal prinsipləri mövcud beynəlxalq qanunvericilik aktlarında və ya konvensiyalarda öz ifadəsini dəqiqliklə tapmışlar. Ayrı-ayrı dövlətlər özlərinin milli qanunvericilik aktlarında bu məqamları beynəlxalq aktlarla uzlaşdırılmış şəkildə ifadə etmişlər. Bu reallığı şərtləndirən başlıca məqamlardan biri də ondan ibarətdir ki, dövlətlər belə universal prinsiplərlə bağlı öhdəliklərə də malik olurlar.

9. İctimai birliklər probleminin səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun müxtəlif aspektləri müxtəlif hüquq sahələrinin predmeti kimi müəyyənləşmişdir. Belə ki, apardığımız təhlillərə əsasən qeyd edə bilərik ki, konstitusiya hüququ birbaşa olaraq hər kəsin birləşmək hüququnu təsbit edir və müvafiq olaraq, ictimai birliklərin konstitusiya-hüquqi statusunu tənzimləyir. İnzibati hüquq dövlət idarəçiliyində ümumi hüquqi rejimə tabe olması planında ictimai birliklərin fəaliyyətini tənzimləyir. Bu zaman ictimai birliklərin vəzifələrinin və funksiyalarının qanuniliyi təmin olunur, icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri reqlamentləşdirilir. Dövlətin ictimai təşkilatların fəaliyyətinə münasibətdə nəzarət funksiyaları maliyyə, əmək, ekoloji hüquq normaları ilə tənzimlənir. Mülki qanunvericilik bütün qeyri-kommersiya təşkilatlarının təşkilati-hüquqi formalarının vəziyyətini ifadə edir. Beynəlxalq hüquq beynəlxalq qeyri-hökumət təşkilatlarının əlamətlərini fərqləndirir və onların beynəlxalq hökumətlərarası təşkilatlar yanında məşvərətçi statusunu müəyyənləşdirir. Bütün bu qeyd etdiklərimiz birləşmək hüququnun da müvafiq olaraq müxtəlif

hüquq sahələrinin tənzimləmə obyekti olduğuna dəlalət edir ki, bu bir daha onun kifayət qədər mürəkkəb xarakterini müəyyənləşdirir.

10. Qeyd edək ki, qeyri-hökumət təşkilatlarının yaranması və fəaliyyəti, cəmiyyətdə yeri və rolu ətrafında təhlillər aprarkən diqqəti cəlb edən bir məqamı xüsusi olaraq vurğulamaq lazımdır. Bu məqam ondan ibarətdir ki, ötən əsrin ortalarından başlayaraq, insan hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlrının ayı ciddi şəkildə artmışdır. Qeyd edək ki, Ümumdünya insan hüquqları bəyannaməsinin tərtib olunması prosesinə on beş qeyri-hökumət təşkilatı cəlb olunmuşdur. Bu qeyri-hökumət təşkilatları prosesdə məşvərətçi statusunda iştirak edirdilər. Sonrakı dövrlərdə qeyri-hökumət təşkilatlarının insan hüquqlarının qorunmasının normativ-hüquqi əsaslarının təkmilləşdirilməsi və ümumiyyətlə, insan hüquqlarının qorunması sahəsində fəallıqları davamlı olaraq artmışdır. Məsələn, hələ 1993-cü ildə Avstriyanın paytaxtı Vyana şəhərində ümumdünya insan hüquqları konfransı keçirilmişdir. Konfransın işində təxmini olaraq 1,5 min qeyri-hökumət təşkilatları iştirak etmişlər. BMT-nin İnsan hüquqları mərkəzinin sabiq direktoru Teo van Boven bunun İkinci dünya müharibəsindən sonra baş vermiş ən əlamətdar tarixi hadisə kimi qiymətləndirmişdir. Onun fikrincə bütün bu təşkilatların beynəlxalq arenada meydana gəlməsi və demək olar ki, bütün qitələri əhatə etməsi insan hüquqları komponentlərinin universallığına dəlalət edir. Bu inkişaf insan hüquqları hərəkatının əsasını təşkil edir. Teo van Boven hətta, bir az da irəli gedərək, bu təşkilatlarsız insan hüquqları sahəsinin acınacaqlı olacağını əsaslandırmışdır. Həqiqətən də, qeyri-hökumət təşkilatlarının insan hüquqlarının qorunması sahəsində ciddi fəallıq göstərməsi bu sahədə nəzərə çarpacaq keyfiyyət dəyişikliklərini şərtləndirmişdir.

11. Ümumiyyətlə, artıq dünya ictimaiyyətinin qəbul etdiyi reallıq ondan ibarətdir ki, XXI əsrdə qeyri-hökumət təşkilatları beynəlxalq həyatın demək olar ki, bütün sahələrinin ən fəal iştirakçılarına çevrilmişlər. BMT-nin sabiq Baş Katibi Kofi Annan bu məsələyə toxunaraq demişdir ki, onilliklər ərzində qeyri-hökumət təşkilatları BMT proqramlarının hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmişlər, bu prosesə dəstək olmuşlar.

Vətəndaş cəmiyyəti təşkilatları heç vaxt olmadığı qədər qlobal miqyasda koalisiyalar formalaşdırmağa, təşkilati fəaliyyətə və ümumi maraq və məqsədlər naminə səfərbərliyə hazırdırlar. Təbii ki, vətəndaş cəmiyyəti təsisatlarının fəallığının artması və ümumiyyətlə, onların sayının durmadan artması, özü-özlüyündə birləşmək hüququna daha geniş miqyasda təminatların yaranmasından xəbər verir. Qeyri-hökumət təşkilatlarının insan hüquqlarının qorunması sahəsində ciddi fəallıq nümayiş etdirmələri həm də müvafiq olaraq, birləşmək hüququnun daha etibarlı qorunması sahəsində nəzərəçarpacaq keyfiyyət dəyişikliklərini şərtləndirmişdir.

12. Hesab edirik ki, BMT-nin müxtəlif strukturlarının qeyri-hökumət təşkilatları ilə əməşdaşlığı xüsusi təhlil obyekti kimi müəyyənləşdirilməlidir. Çünki, bu əməkdaşlıq daha çox elə insan hüquqları sahəsini əhatə edir. 1946-cı ildə BMT-nin İctimai informasiya departamenti yaradılmışdır. Bu departamentin yaradılması özü-özlüyündə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın əhəmiyyətinin yüksək qiymətləndirilməsindən xəbər verirdi. BMT Baş Assambleyası İctimai informasiya departamenti qarşısında müxtəlif ölkələrin informasiya orqanları ilə əməkdaşlıq və onlara yardım etməklə bağlı öhdəliklər qoymuşdur. Həmçinin, ayrı-ayrı ölkələrdə BMT haqqında informasiyaların genişləndirilməsi istiqamətində hökumət və qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq tövsiyə olunur. Nəzərə almaq lazımdır ki, qeyri-hökumət təşkilatlarının BMT strukturları və ya təsisatları ilə münasibətlərinin xarakteri məqsədlərdən, yerləşmə nöqtələrindən və mandatdan asılı olaraq dəyişir. BMT-nin strukturları ilə qeyri-hökumət təşkilatları arasında təmasların sıxlaşması ümumilikdə dünya ölkələrində vətəndaş cəmiyyətinin inkişafı problemlərinin diqqət mərkəzində olmasını şərtləndirir. Hazırda 1500-dən artıq qeyri-hökumət təşkilatı BMT-nin İctimai informasiya departamentində, BMT katibliyində məşvərətçi statusunda təmsil olunmaqdadırlar. Bu, BMT-yə dünyanın hər yerindən olan insanlarla təmasları saxlamaq və genişləndirmək üçün yaxşı imkanlar verir. Həmçinin, dünya dövlətlərinin əhalisi qeyri-hökumət təşkilatları vasitəsilə müəyyən problemlərinin, həmçinin, hüquq və azadlıqlarının qorunması ilə bağlı meydana gələn problemlərinin BMT müstəvisində həll olunması üçün imkanlar

qazanmış olur. Bütün qeyd etdiyimiz bu məqamlar aydın sübut edir ki, qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti ideyalarının oturuşmasının hərəkətverici qüvvəsi rolunda çıxış etməklə yanaşı, qlobal miqyasda insan hüquqlarının qorunması sahəsində birgə fəaliyyəti şərtləndirir. Bu baxımdan, diqqət yetirmiş olsaq, beynəlxalq təşkilatların, xüsusilə də, BMT-nin insan hüquq və azadlıqlarının qorunması sahəsində qeyri-hökumət təşkilatları ilə hərtərəfli əməkdaşlıq etdiklərini müəyyənləşdirmiş oluruq.

13. İctimai birliklərin fəaliyyəti, onların cəmiyyətdə yeri və rolu, həmçinin hüquqi tənzimlənməsi problemi ətrafında apardığımız təhlillər müəyyən çatışmazlıqların olduğunu müəyyənləşdirməyə imkan vermişdir. Bu çatışmazlıqlar əsasən ictimai təşkilatların yaradılmasının və fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsinə aiddirlər. Ümumiləşdirilmiş şəkildə bu çatışmazlıqları nəzərdən keçirmək mümkündür:

-qanunvericilik aktlarında ictimai təşkilatların mülki-hüquqi statusunun və digər qeyri-hökumət qeyri-kommersiya təşkilatların və onların əsas fəaliyyət məsələlərinin qarışdırılması. Bu, normativ aktlarda hüquqi normaların təkrarlanmasına eyni məsələlərin ümumi və xüsusi normalarla tənzimlənməsində ziddiyyətlərə səbəb olur;

-ictimai birliklərə və digər qeyri-hökumət qeyri-kommersiya təşkilatlarına münasibətdə çoxsaylı, əksər hallarda isə tam əsaslandırılmamış qanunvericilik tələblərinin mövcudluğu. Belə hal birləşmək hüququnun reallaşdırılmasını ciddi şəkildə çətinləşdirir;

-ictimai birliklərin və qeyri-kommersiya təşkilatlarının təsnifatının vahid sisteminin olmaması;

-vətəndaş təsisatlarına nəzarət edən çoxsaylı dövlət strukturlarının olması. Əksər hallarda onların funksiyaları demək olar ki, biri-birilərini tam təkrarlayır. Təbii ki, bu da ictimai birliklərin tam sərbəst fəaliyyətinə mane olur, deməli, müvafiq olaraq, həm də birləşmək hüququnun tam reallaşdırılmasını əngəlləyir.

Qeyd edək ki, bu, qeyd etdiklərimiz heç də bütün mövcud olan çatışmazlıqlar deyildir. Artıq nəzərə çatdırdığımız kimi, belə çatışmazlıq dünya dövlətlərinin əksəriyyə tində müşahidə olunur. Bu baxımdan, hesab edirik ki, ictimai birliklərinin yaradılmasının və

fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi sahəsində ciddi təkmilləşdirmələrin aparılmasına ehtiyac vardır.

14. Tədqiqatlarımız zamanı müəyyənləşdiyimiz məqamlardan biri də ondan ibarət oldu ki, birləşmək hüququnun iqtisadi hüquqlarla qarşılıqlı əlaqələri özünün əsasən onda biruzə verir ki, iqtisadiyyat sahəsi heç də ictimai təşkilatların fəaliyyətindən kənarda qalmırlar. Bu, ondan irəli gəlir ki, iqtisadiyyat sosial sahə ilə sıx bağlılığa malik olur. Lakin onu da nəzərə almaq lazımdır ki, ictimai təşkilatlar heç də sırf iqtisadi məqsədlərə çatılması üçün yaradılmırlar. Ümumiyyətlə, apardığımız tədqiqat işlərinin nəticələrinə uyğun olaraq, birləşmək hüququnun universal xarakterini əsaslandıra bilərik. Belə ki, birləşmək hüququnun xarakterini bir qayda olaraq, ondan istifadə olunaraq yaradılan ictimai birliklərin təyinatı müəyyənləşdirir. Yaradılmış ictimai birliyin xarakterindən asılı olaraq birləşmək hüququ siyasi, sosial və iqtisadi hüquqlar kateqoriyasına aid oluna bilər.

15. Dünya təcrübəsinin nəzərdən keçirilməsi sübut edir ki, dövlət birləşmək hüququna real təminat verməklə, üzərinə götürmüş olduğu öhdəlikləri yerinə yetirməklə yanaşı, həm də cəmiyyətdə müəyyən stabilliyə nail olur. Belə ki, birləşmək hüququna təminat nəticəsində yaradılmış ictimai birliklər bir çox hallarda sosial problemlərinin həllinin müəyyən bir qismini öz üzərinə götürməklə, sosial gərginliyin zəifləməsini şərtləndirir. Hətta, müasir dünya dövlətlərinin əksəriyyətində dövlət məqsədli şəkildə daha çox sosial problemlərin həllini ictimai birliklərə həvalə edir. Təbii ki, bunun üçün ictimai birliklərin daha səmərəli fəaliyyət göstərmələri üçün həm normativ-hüquqi, həm də zəruri praktiki şərtlər təmin olunmalıdır. Buradan belə qənaətə gəlmək olur ki, dövlət birləşmək hüququna nə qədər ciddi təminat verirsə, cəmiyyətdə bir o qədər çox siyasi, sosial və istisadi tərəqqidən danışmaq mümkün olur. Lakin onu da qeyd etmək lazımdır ki, bununla yanaşı, birləşmək hüququnun reallaşdırılması sahəsində işlək tənzimləmə mexanizmlərinin tətbiq oplunması da olduqca vacibdir.

16. Birləşmək hüququ ilə hüquqi dövlət arasında üzvü bağlılıq mövcuddur. Hüquqi dövlət olmayan yerdə birləşmək hüququnun ancaq formal xarakterindən danışmaq mümkündür. Çünki hüquqi

dövlət birləşmək hüququnun əsas təminatçısı rolunda çıxış edir. Birləşmək hüququnun reallaşdırılması üçün tələb olunan şərait hüquqi dövlətdə mümkündür. Hüquqi dövlətin başlıca əlamətlərindən biri də məhz birləşmək hüququnun olmasıdır. Hüquqi dövlətdə vətəndaş cəmiyyətinin inkişafı üçün real imkanlar mövcud olur. Deməli, hüquqi dövlət istənilən hallarda birləşmək hüququnun reallaşdırılmasına təminat verir. Hüquqi dövlət birləşmək hüququnun təminatı ilə bağlı üzərinə öhdəliklər götürür və onlara dəqiqliklə əməl edir. Çünki hüquqi dövlətin özünün mövcudluğu və inkişafı birbaşa birləşmək hüququnun reallaşdırılması səviyyəsindən asılıdır. Həmçinin, gəldiyimiz nəticələrdən biri də ondan ibarət oldu ki, birləşmək hüququ siyasi və ideoloji plüralizmlə birbaşa bağlılığa malikdir.

17. Ümumiyyətlə, birləşmək hüququ vətəndaşların fərdi bacarıqlarının üzə çıxmasını da şərtləndirir. Belə ki, birləşmək hüququ təkcə siyasi deyil, həm də sosial və iqtisadi fəaliyyət sahələrinə aid olduğu üçün insanlar və ya vətəndaşlar könüllülük prinsipi əsasında yaratdıqları birliklər və ya ictimai təşkilatlar çərçivəsində həmçinin, özlərinin müəyyən fərdi bacarıqlarını reallaşdırırlar. Birləşmək hüququ həm də maraqların eyniliyini üzə çıxarır. Belə ki, birləşmək hüququ oxşar maraqlara və məqsədlərə malik olan insan və ya vətəndaşlarının birliklərinin yaradılmasına imkan verir. Ümumi maraqların və məqsədlərin olmadığı halda birləşmək hüququnun reallaşdırılmasının əhəmiyyətindən danışmaq əsassızdır. Bir çox hallarda birləşmək hüququnun reallaşdırılması situativ xarakter daşıyır. İnsanların maraqları dəyişkən olduğu üçün, müvafiq olaraq, birləşmək hüququnun sahəvi xarakteri dəyişkən olur. Buna baxmayaraq, istənilən halda birləşmək hüququ ümumi maraqlar və məqsədlər naminə başqaları ilə birləşməni nəzərdə tutur. Birləşmək hüququnun məzmunu onun reallaşdırıldığı sahənin xarakterinə uyğun olaraq müəyyənləşir. Belə ki, buna müvafiq olaraq, o, sosial, siyasi, iqtisadi, mədəni xarakterli ola bilər.

18. Konstitusion hüquqların çərçivəsinə aid olan bütün hüquqi aktları əsasən iki müstəvidə nəzərdən keçirmək mümkündür və ya onları iki kateqoriyaya aid etmək olar. Birinci halda hüquqi aktlar fəal şəkildə subyektlər tərəfindən həyata keçirilir. İkinci halda isə,

müəyyən hərəkətlərdən çəkinmək yolu ilə reallaşdırılır. Birləşmək hüququ bu tərəfləri biri-birilərini tamamlayır. Yəni, birləşmək hüqüqu həm pozitiv və neqativ kimi qiymətləndiriləcək imkanlar verir. Belə ki, vətəndaşlar ümumi maraqların və ya məqsələrə çatılması motivləri əsasında öz birliklərini yaratmaq və ya mövcud birliklərin işində iştirak etmək hüququna malik olmaqla yanaşı, həm də bu qeyd etdiklərimizi etməmək hüququna da malikdir. Deməli, vətəndaşlar özlərinin birləşmək hüquqlarını həm fəal, həm də passiv davranış mexanizmləri vasitəsilə reallaşdıra bilərlər. Birləşmək hüququnun reallaşdırılması mexanizmləri ictimai birliklərin yaradılmasında, mövcud olan ictimai birliklərin işində iştirak etməkdə və şüurlu şəkildə ictimai birliklərə qoşulmaqdan imtina etməkdə təzahür edir.

19. İstənilən halda müasir dövrdə də birləşmək hüququnun hansı hüquqlar kateqoriyasına aid olması ətrafında qızğın mübahisələr getməkdədir. Birləşmək hüququnun mürəkkəb təbiəti onun siyasi yaxud sosial hüquqlar kateqoriyasına aid edilməsi məsələsini çətinləşdirir. Bu məqam özü-özlüyündə birləşmək hüququnun mahiyyətinin tam dərk edilməsini əngəlləyir. Deməli, birləşmək hüququnun araşdırılması vacib olan çoxsaylı məsələləri qalmaqda davam edir.

20. Birləşmək hüququnun beynəlxalq-hüquqi və milli qanunvericilik səviyyəsində reqlamentləşdirilməsinin nəzərdən keçirilməsi, onun müasir mərhələdə əksər dövlətlərin konstitusiyalarında təsbit edildiyini müəyyənləşdirməyə imkan vermişdir. Həm də bu hüquq ayrı-ayrı fəaliyyət sahələrinə aid olan birliklərdə birləşməni ifadə edir. Məsələn, “həmkarlar ittifaqlarında birləşmək” hüququ, “siyasi partiyalarda birləşmək” hüququ və tamam fərqli birliklərdə birləşmək hüququ və s. Belə müxtəliflik bir çox hallarda birləşmək hüququnun bütün aspektlərini tam tənzimlənməsini çətinləşdirir. Hesab edirik ki, hər bir fəaliyyət sahəsi üçün ayrıca birləşmək hüququnun nəzərdə tutulması normativ-hüquqi tənzimləmənin səmərəliliyini əhəmiyyətli dərəcədə azaldır. Dünyanın əksər ölkələrində qeyri-hökumət sektorunun fəaliyyət təcrübəsinin nəzərdən keçirilməsi, ictimai birliklərin müasir cəmiyyətin ayrılmaz hissəsi olduğu qənaətinə gəlməyə imkan verir. Ümumilikdə ictimai təşkilatlar vətəndaş cəmiyyətinin vacib elementini təqdim edirlər.

Müxtəlif vətəndaş təşəbbüslərinin özünütəşkili olmadan ictimai mexanizmlərin həqiqi səmərəli fəaliyyət göstərməsi, strukturlaşması və inkişafı, müvafiq olaraq, insan həyatının bütöv, dayanıqlı rifahı qeyri-mümkündür. Bununla bərabər, müasir reallıqlar çərçivəsində qanunvericilik səviyyəsində ictimai birliklərin institusionallaşması müşahidə olunmaqdadır.

21. Çoxsaylı beynəlxalq qanunvericilik aktlarında, konvensiyalarda birləşmək hüququnun reallaşdırılmasının vacibliyi təsbit olunmuşdur. Bu konvensiyalara qoşulan dövlətlər də öz üzərilərinə birləşmək hüququnun təminatı sahəsində konkret öhdəliklər götürmüş olurlar. Əksər hallarda digər fəaliyyətlər və ya davranışlar üçün imkan verən hüquqlar birləşmək hüququ kimi də nəzərdən keçirilə bilər. Bu məqam birləşmək hüququ ilə bağlı müddəaların daha da konkretləşdirilməsini tələb edir. Birləşmək hüququnun təmin olunması məsələsi ilə yanaşı, onun məhdudlaşdırılması imkanları da həm milli qanunvericilikdə, həm də beynəlxalq hüquqi aktlarda ifadəsini tapmışdır. Bunun üçün xüsusi şərtlərin olması və əsaslandırma tələb olunur. Belə ki, birləşmə hüququ təhlükəsizliyin, ictimai-asayişin təmin olunması, digərilərinin hüquqlarının pozulmasının qarşısının alınması məqsədləri ilə ciddi şəkildə əsaslandırılmaq şərti ilə məhdudlaşdırıla bilər. Bununla yanaşı, tədqiqatlarımız nəticəsində müəyyənləşdirə bildik ki, birləşmək hüququnun məhdudlaşdırılmasının tam işlək və universal normativ hüquqi əsasları formalaşdırılmamışdır. Birləşmək hüququnun məhdudlaşdırılması imkanlarından siyasi arenada üstünlük əldə etmək üçün istifadə edilməsinin qarşısını alacaq etibarlı mexanizmlər da mövcud deyildir. Bu baxımdan, hesab edirik ki, bu istiqamətdə ciddi təkmilləşdirmə işlərinin aparılması vacibdir.

22. Azərbaycan Respublikasının da ratifikasıya etdiyi beynəlxalq qanunvericilik aktlarına əsasən, fövqəladə hallar şəraitində birləşmək hüququ qismən və tam məhdudlaşdırıla bilər. Belə məhdudlaşdırma ictimai-siyasi xarakterli fövqəladə vəziyyətlər nəticəsində baş verirsə, onda beynəlxalq normativ-hüquqi aktlara görə əsaslandırılmış sayıla bilər. Ən başlıca əsaslandırma isə ondan ibarət olmalıdır ki, birləşmək hüququ başqalarının əsas hüquq və azadlıqlarının pozulmasının qarşısını almaq məqsədi ilə

məhdudlaşdırılır. Təbii və texnogen xarakterli vəziyyətlər bir qayda olaraq birləşdirmək hüququnun məhdudlaşdırılması üçün əsas kimi təqdim olunmamalıdır. Yaranmış fövqaladə vəziyyətlərin aradan qaldırılmasının hər hansı bir başqa yolu olmadığı halda birləşmək hüququnun məhdudlaşdırılması əsaslandırılmış hesab oluna bilər. Normal hüquqi tənzimləmə rejimlərində birləşmək hüququ yalnız hər bir dövlətin ali qanununda ifadə olunmuş universal konstitusiya dəyərlərinin təmin olunması məqsədi ilə məhdudlaşdırıla bilər. Məsələn, belə dəyələrdən biri də ondan ibarətdir ki, vətəndaş özünün hüquqlarını reallaşdıran zaman başqalarının hüquqlarını pozmamalıdır.

23. Vətəndaş cəmiyyətinə malik hüquqi demokratik dövlət ictimai birliklərin təkcə formal yaradılması üçün deyil, həm də onların real fəaliyyət göstərmələri üçün münasib şərait yaradır. Bu, ictimai təşkilatların fəaliyyətinin hüquqi nöqteyi-nəzərdən mükəmməl əsaslarının formalaşdığı hallarda mümkündür. Çünki, bu halda ictimai birliklərin dinamik fəaliyyəti müşahidə olunur. Hər bir kəs tərəfindən birləşmək hüququnun tam olaraq yerinə yetirilməsi həmçinin, hakimiyyətin seçkili orqanlarının formalaşmasına və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsinə, hakimiyyət orqanları ilə yerli birliklər arasında birbaşa və əks əlaqələr sisteminin inkişafına, yerli özünü idarəetmənin həyata keçirilməsinə, ictimai asayişin qorunmasına kifayət qədər müsbət təsir göstərir. Bu da öz növbəsində vətəndaş cəmiyyəti kateqoriyasında ifadə olunan əsas ideyaların reallaşdırılması üçün yaxşı zəmin yaradır. Xüsusi olaraq nəzərə çatdırmaq lazımdır ki, bələdiyyə qurumları miqyasında mövcud olan birliklərin fəaliyyəti onların sonrakı inkişafı üçün əhəmiyyətlidir. Yəni, məhz birləşmək hüququ birbaşa olaraq yerli idarəetmə institutlarının inkişafını və vətəndaş cəmiyyətinin formalaşmasını şərtləndirir. Həmçinin, mahiyyətindən və fəaliyyət xüsusiyyətlərindən çıxış edərək, əsaslandıra bilərik ki, birləşmək hüququnun reallaşdırılmasının nəticəsi olaraq yaradılan birliklər ictimai idarəetmənin səciyyəvi forması kimi nəzərdən keçirilə bilər.

24. Birləşmək hüququ təkcə vətəndaşların ümumi maraq və məqsədlər naminə ictimai birliklərini yaratmaq və ya artıq mövcud olan birliyə qoşulmaq hüququ kimi qiymətləndirilməməlidir.

Həmçinin, vətəndaşların bu proseslərdən real çəkinmək imkanlarının olması da birləşmək hüququnun reallaşdırılması kimi qiymətləndirilməlidir. Yəni, vətəndaş heç bir halda bu və ya digər təşkilata zorla cəlb oluna bilməz. Deməli, onun həmçinin, iştirak etməmək hüququ vardır. Həm Azərbaycan Respublikasında, həm də dünyanın əksər dövlətlərində birləşmək hüququnun reallaşdırılmasının hüquqi tənzimlənməsi sahəsində qanunvericilik kifayət qədər sistemli deyildir.  Belə ki, birləşmək hüququ həm konstitusiyada, həm də bir çox digər qanunvericilik aktlarında ifadə olunmuşdur. Məsələn, "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu və s. nümunə göstərə bilərik. Müvafiq olaraq digər ölkələrdə də qəbul olunmuş qanunvericilik aktlarını qeyd etmək mümkündür. Bu, da bəzən müəyyən ziddiyyətlərin meydana çıxmasına səbəb ola bilər. Birləşmək hüququnun reallaşdırılmasının hüquq tənzimlənməsi sahəsində bütün hallar üçün tətbiq olunacaq universal bazasının yaradılmasına ehtiyac vardır. Bütün ictimai birliklərin yaradılması və fəaliyyəti sahəsində tənzimləmənin də vahid qanunvericilik aktı bazası əsasında aparılması daha məqsədəuyğun olardı.

25. Müstəqilliyini əldə etdiyi vaxtdan hazırkı dövrədək Azərbaycan Respublikasında demokratik hüquqi dövlət quruculuğu sahəsində olduqca böyük uğurlara imza atılmışdır. Müasir Azərbaycan dövlətçiliyinin banisi Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə dönüşün ilk vaxtlarından plüralist, demokratik, insan hüquq və azadlıqlarına böyük həssaslıqla yanaşıldığı cəmiyyət quruculuğu prosesi ciddi dinamiklik kəsb etmişdir. Azərbaycan cəmiyyətində vətəndaş, siyasi və iqtisadi fəallığın davamlı olaraq yüksəlişi müşahidə olunmuşdur. Bu proses bu gün daha böyük dinamikliklə inkişaf etməkdədir. Bütün bunlar isə Azərbaycanda intensiv olaraq vətəndaş cəmiyyəti quruculuğu prosesinin getdiyinə dəlalət edir. Azərbaycan Respublikasında ictimai birliklərin arealının sürətlə genişlənməsi vətəndaş təşəbbüsünün fəallaşmasından da xəbər verir. Bu, bir tərəfdən bu və ya digər sosial təbəqinin maraqlarının müdafiə olunması istiqamətində qeyri-formal

mexanizmlərin tətbiqinə imkan verir, digər tərəfdən isə, müvafiq istiqamətdə dövlət tənzimləməsinin daha səmərəli üsullarının tətbiqi üçün zəmin yaradır. Bu baxımdan, Azərbaycan Respublikasında qeyd edə bilərik ki, birləşəmək hüququnun real təmin olunduğu şəraitdə ictimai birliklərin fəallığının yüksəlməsi vətəndaş cəmiyyəti quruculuğunun yaxşı perspektivlərindən xəbər verir.

26. Azərbaycan Respublikasında birləşmək hüququnun normativ-hüquqi əsasları beynəlxalq qanunvericilik aktları əsasında yaradılmışdır. Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən insan hüquq və azadlıqlarının qorunması sahəsində müxtəlif konvensiyalara qoşularaq öz üzərinə müəyyən öhdəliklər götürmüşdür. Həmçinin, birləşmək hüququna konstitusion təminat mövcuddur. Birləşmək hüququnun Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti quruculuğu prosesində təsirli rolu aydın müşahidə olunmaqdadır. Bu baxımdan, vətəndaş cəmiyyəti ideyasının genişlənməsi istər-istəməz birləşmək hüququnun təminatı ilə bağlı tələbləri gücləndirir. Birləşmək hüququnun məhdudlaşdırılması təcrübəsi beynəlxalq konvensiyalarının müvafiq müddəaları ilə uyğunluq təşkil edir. Apardığımız tədqiqat işlərinin nəticəsinə əsasən qeyd edə bilərik ki, Azərbaycanda da birləşmək hüququnun məhdudlaşdırılmasının daha dəqiq prinsiplərinin və mexanizmlərinin müəyyənləşdirilməsinə ehtiyac vardır.

27. Azərbaycan Respublikasında, həm də dünyanın əksər dövlətlərində birləşmək hüququnun reallaşdırılmasının hüquqi tənzimlənməsi sahəsində qanunvericilik kifayət qədər sistemli deyildir. Belə ki, birləşmək hüququ həm konstitusiyada, həm də bir çox digər qanunvericilik aktlarında ifadə olunmuşdur. Bu, da bəzən müəyyən ziddiyyətlərin meydana çıxmasına səbəb ola bilər. Birləşmək hüququnun reallaşdırılmasının hüquq tənzimlənməsi sahəsində bütün hallar üçün tətbiq olunacaq universal bazasının yaradılmasına ehtiyac vardır. Bütün ictimai birliklərin yaradılması və fəaliyyəti sahəsində tənzimləmənin də vahid qanunvericilik aktı bazası əsasında aparılması daha məqsədə uyğun olardı. Hesab edirik ki, ictimai birliklərin və qeyri-kommersiya təşkilatlarının təsnifatının vahid sisteminin olması ölkədə vəntdaş cəmiyyətinin inkişafına müsbət təsir göstərə bilər.

28. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi dövlətin əsas prioritetlərindən hesab olunur. Bu istiqamətdə beynəlxalq təşkilatların müəyyən etdiyi bütün standartların təmini istiqamətində mütəmadi işlər aparılır. Müşahidələrimiz göstərir ki, vətəndaş cəmiyyətinin özəyini təşkil edən QHT-lərin müvafqi dövlət orqanında qeydə alınması prosesində bəzən arzuolunmaz hallar yaşanır. Bu məsələnin kökündən həll olması məqsədi ilə təklif edirik ki, kommersiya hüquqi şəxslərin qeydiyyatına tətbiq edilən "bir pəncərə" elektron qeydiyyat sistemi QHT-lərin də hüquqi qeydiyyatına müəyyən uyğun əlavə və düzəlişlərlə tətbiq olunsun. Hesab edirik ki, ictimai birliklərin dövlət qeydiyyatının elektron mexanizmləri hazırlanmalıdır. Bu halda təsisçilərlə qeydiyyatı aparan dövlət orqanı arasında münasibətlər daha şəffaf və prosedur daha rahat olar.

## Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Birləşmək hüququnun reallaşma mexanizmləri // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, – 2015, № 3, – s.88-93.
2. İnsan hüquq və azadlıqlarının qorunması ictimai inkişafın əsas şərti kimi // Bakı Universiteti Xəbərləri: sosial-siyasi elmlər seriyası, – 2015, № 3, – s.31-38.
3. İnternational legal bases of protection of human rights // Journal of Qafqaz University: history, law and political sciences, – 2015, Volume 3, number 2, – p.200-206.
4. İnsan hüquqlarının genezisi və inkişafı // Beynəlxalq hüquq və inteqrasiya problemləri jurnalı, – 2015, № 3 (43), – s.12-17.
5. İnsan hüquqlarının qorunmasının normativ hüquqi əsasları // AMEA, Fəlsəfə və hüquq institutu: Elmi Əsərlər jurnalı, – 2015, №2 (25), – s.181-186.
6. Birləşmək hüququnun Azərbaycan Respublikası qanunvericilik sistemində təsbiti // BDU Hüquq fakültəsi, "Heydər Əliyev Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktik

konfransın materialları, – Bakı, – c. I, – 2015, – s.34-38.
7. İctimai birliklər və onların hüquqi tənzimlənməsi // Akademik Elm Həftəliyi – 2015. Beynəlxalq multidisipinar Forum. Bakı, – 02-04 noyabr, – 2015, – s.47-49.
8. Beynəlxalq ekoloji standartlar insan hüquqları kontekstində. Monoqrafiya. – Bakı: “Sabah” nəşriyyatı, – 2015, – 324 s.
9. Birləşmək hüququnun əsas səciyyəvi cəhətləri // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, – Bakı, – 2016, № 4, – s.127-132.
10. Birləşmək hüququnun mahiyyəti və konstitusiya hüquqları sistemində yeri // AMEA, Gənc tədqiqatçı elmi-praktiki jurnalı, – 2016, II cild, №2, – s.152-156.
11. İnsan hüquqlarının unversal və regional müdafiə sisistemləri // AR Prezidendi yanında DİA-nin ”Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı, – 2016, №2 (54), – s.233-238.
12. Место права на объединение в система прав и свобод человека в Азербайджанской Республике // НАН Украина, Часопис Киiвського Университету Права. Киев, – 2016, № 3, – с.374-377.
13. Müasir dövrdə insan hüquqlarının qorunması problemi // Beynəlxalq hüquq və inteqrasiya problemləri jurnalı, – 2016, № 2 (46), – s.26-33.
14. Əsas insan hüquq və azadlıqlarının xarakterik cəhətləri //Bakı Universiteti Xəbərləri: sosial-siyasi elmlər seriyası, – 2016, № 3, – s.76-83.
15.26.09.2016-cı il tarixində Azərbaycan Respublikasında səsverməyə çıxarılmış Referendum Aktının müddəaları insan hüquqları konteksində //Uluslararası Türk Dünyası Eğitim Bilmləri və Sosyal Bilimlər Kongresi Bildirimləri. – Antalya, Turkiyə, – 2016, IV cild, – s.533-539.
16. Birləşmək hüququ “İnsan hüquqları haqqında ümumi bəyannamədə” //İntegration prosses of the world science in the 21-st century: international forum. – Ganja, –10-14 october, – 2016, – s.252-253.
17. İnsan hüquqlarının nəzəri hüquqi əsasları və onların qorunması problemi. Monoqrafiya. – Bakı: “Papiros NP” nəşriyyatı, –

2016. – 136 s.
18. Соответствия с другими правами и свободами человека права на объединение // Балтийский Гуманитарный Журнал. РФ, – 2017, Т.6. № 2 (19), – с.214-216.
19. Основные принципы обеспечения права на объединение // «Часопис Киівский університет права» Киівский університет права НАН Украіни, Інститут держави і права ім. В.М.Корецького НАН Украіни, – 2017, № 2, – с.275-279.
20. Основы конституционного права на объединение в Азербайджанской Республике // Публичное право – Public Law. Науково – практичний юридтчний журнал. Ужогородский націоналный університет, – 2017, №3(27), – s.73-79.
21. Vətəndaş cəmiyyətinin inkişafında birləşmək hüququnun rolu // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, – Bakı, – 2017, №47, – 135-143 s.
22. Birləşmək hüququ konteksində İnsan və vətəndaş hüquqlarının sərhədləri // Bakı Universiteti Xəbərləri: sosial-siyasi elmlər seriyası, – 2017, № 3, – s.31-38.
23. Vətəndaş cəmiyyəti və birləşmək hüququ // Gənc Tədqiqatçı, Elmi-praktiki jurnal, – 2017, III cild, №1, – s.229-235.
24. Нормативные основы органичения права на объединение // Юридический Вестник, – 2017, Т.22 №2, – с.66-70.
25. Право на объединение и гражданское общество // Материаль международной научной конференции студентов, спирантов и молодых ученых, – НАЛЬЧИК. РФ, – 2017, Том III, – с.387-393.
26. Birləşmək hüququnun təmin olunmasının başlıca prinsipləri // II.Uluslararası Sosyal Bilimlər Araştırmaları Kongresi, – Baku, – 2017, – s.325-329.
27. Sustainable development in the context of human rights // Proceedings of İnternational Scientifc Conference on Sustianable Development Goals, – Baku, – 24-25 November, – 2017, – p.472-476.
28. The right to Associate in Civil Society: The practice of Post-

Soviet countries. – LAP LAMBERT Academic Publishing, – 2017, – 116 s.
29. Guaranteeing the Right of Association in the Republic of Azerbaijan: Current Situation and Perspectives // Journal of Political Sciences and Public Affairs. Longdom Group SA Avenue Roger Vandendriessche, – 18, 1150, – Brussels, Belgium, – 2018, Volume 6, – p.8-15.
30. Правовый статус и особенности общественных объединений // Публичное право – Public Law. Науково – практичний юридтчний журнал. Ужогородский націоналный університет, – Украина, – 2018, №3(31), – c.204-210.
31. Forms of Stating the Right to Freedom of Association in International Regulatory Acts // KHAZAR Journal of humanites and social sciences, – 2018, Volume 21, №2, – p.92-103.
32. The role of civil society institution in the fornation of a legal state // The scientific and pedagogical news of Odlar Yurdu University, – Bakı, – 2018, №49, – p.239-251.
33. Право на объединение в профсоюзы как одно из основных прав граждан // Правовая система и вызовы современности: материалы XIV Международной научной конференции студентов, аспирантов и молодых ученых. В 2-хч. Ч.П. – Уфа: РИЦ БашГУ, – 13-15 декабря, – 2018, – с.200-206.
34. Birləşmək hüququ ayrı-ayrı dövlətlərin təcrübəsində: müqayisəli təhlil // Bakı Universiteti Xəbərləri: sosial-siyasi elmlər seriyası, – 2019, № 4, – s.35-47.
35. The Situation of the Right to Association in Post Soviet Countries: Experience in the Republic of Azerbaijan and the Russian Federation // Periódico do Núcleo de Estudos e Pesquisas sobre Gênero e Direito Centro de Ciências Jurídicas - Universidade Federal da Paraíba 917 CIDADE UNIV, JOAO PESSOA, PB 58059-900, – BRAZIL, – 2020, v. 9 n. 03. Special Edition, – p.963-985.
36. “Birləşmək huququnun təmin olunması: göstəriciləri və

mexanizmləri" // Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin 98-ci il dönümünə həsr olunmuş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri vıə praktiki yanaşmalar" mövzusunda təşkil olunmuş elmi – nəzəri konfransın matreallları, – Bakı, – 2021, – s.237-244.

37. Specific features of the right to associate in trade unions in the republic of Azerbaijan: theoretical and practical analysis. // ScienceRise: Juridical Science, – 2021, v. 4 n. 18, – p.36-41.
38. Birləşmək (assosiasiya hüququ) hüququnun təminatı sahəsində Avropa Şurası Mexanizmləri: nəzəri və praktiki təhlil // Book of Abstracts İnternational Conference: XXI Century, New Challenges and Modern Development Tendencies of Law, – 2021, – s.205-206.
39. Main Models of Realisation of the Right of Association in the Azerbaijan Republic // Socrates. Rīga Stradiņš University Faculty of Law Electronic Scientific Journal of Law. – 2022, 1(22), – p.89-99.
40. Əsas insan hüquqlarından biri olan birləşmək hüququnun formaları // Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri" adlı respublika elmi-praktiki konfransının materialları, Bakı: 2023, – 148-150 s.

Dissertasiyanın müdafiəsi 30 may 2024-cü il tarixində saat 11⁰⁰ Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-23. I korpus, auditoriya 608.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.04.2024

Kağızın formatı: A5

Həcm: 79546

Tiraj: 100 nüsxə